**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AƏZRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KƏRİMOVA VƏFA QADİR QIZI**

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ƏNƏNƏVİ VƏ MÜASİR METODLARDAN İSTİFADƏ

**İxtisaslaşma: HSM-060201 – Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər**: *Sevinc Qüdrət qızı Musayeva*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**BAKI – 2022**

**MÜNDƏRİCAT**

GİRİŞ ........................................................................................................ 3

I FƏSİL. ƏNƏNƏVİ DƏRSLƏRİN MAHİYYƏTİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ ........................................................................................................ 6

1.1. Ənənəvi dərslərin özünəməxsusluğu ........................................................ 6

1.2. Ənənəvi dərslərdə üstünlük verilən metodlar ........................................... 16

II FƏSİL. AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODLARI ........................................................................................................ 35

2.1. Müasir təlim metodlarının mahiyyəti və təsnifatı ...................................... 35

2.2.Ənənəvi və müasir metodların müqayisəsi ................................................ 53

NƏTİCƏ ........................................................................................................ 66

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI ........................................... 68

# GİRİŞ

Bu gün cəmiyyətin, elm və texnologiyanın sürətli və davamlı inkişafı nəticəsində təhsil sistemində dillərin, o cümlədən Azərbaycan dilinin öyrənilməsinə xüsusi marağın göstərildiyi nəzərə çarpır. Əgər bir sıra xarici dillərin öyrənilməsinə olan maraqları bir neçə səbəblərlə, məsələn, dünyanın müxtəlif ölkələrinə səyahət etmək, çoxsaylı mədəniyyətlərlə yaxından tanış olmaq, xarici ölkələrin nümayəndələri ilə ünsiyyət prosesində öz dünyagörüşünü genişləndirmək, dünya elminə inteqrasiya etmək, klassiklərin əsərlərini orijinal mənbələrdən oxumaq və s. izah etmək mümkündürsə, Azərbaycan dilinin öyrənilməsinə olan maraq isə onun elmi-texniki tərəqqinin nailiyyətləri əsasında yeni metodlarla gələcək nəslə tədris etmək zərurəti ilə birbaşa bağlıdır.

Azərbaycan dilini öyrənmə prosesində danışıq bacarıqlarının uğurlu şəkildə formalaşdırılması üçün dil və danışıq sistemlərini eyni zamanda əlaqədə götürmək lazımdır, çünki ünsiyyət aktında dil və danışıq sistemlərini ayırmaq mümkün deyildir, yəni dilin sistem və struktur xüsusiyyətləri danışıqda reallaşır və danışığın təhlili isə yalnız dil sistemini bildikdə uğurla aparmaq olar.

**Tədqiqat işinin aktuallığı**. Dilin daşıyıcılarının Azərbaycan dilinə aid qazandıqları biliklərlə və onda fikirlərini səlis ifadə etmək qabiliyyəti ilə eyniyyət təşkil etmir. Azərbaycan dilinin öyrənilməsində psixoloji və linqvodidaktik əsaslara sahib olma isə şagird və müəllimə yaxından kömək edə bilər. Son illərdə Azərbaycan dilinin tədrisi prosesində şagirdlərdə müxtəlif səriştələrin formalaşması istiqamətində aparıcı yanaşmalar çərçivəsində yeni metodlar və texnologiyaların işlənib hazırlanmasına xüsusi diqqət yetirilir ki, bu da tədqiqat işinin mövzusunun aktuallığını şərtləndirir. Bundan başqa, Azərbaycan dilinin təlimində problemin tədqiq səviyyəsinin müəyyənləşdirilməsi və şagirdlərin linqvistik səriştə və bacarıqlarının inkişafında Azərbaycan dilindəki mətnlər üzrə işlərin əhəmiyyətini aydınlaşdırılması da işin aktuallığını şərtləndirir.

**Tədqiqat işinin obyekti və predmeti.** Tədqiqat işinin obyekti müasir dövrdə orta məktəblərdə Azərbaycan dilinin tədrisi təşkil edir. Tədqiqat işinin predmetini isə Azərbaycan dilinin tədrisinin praktik və nəzəri problemlərinin araşdırılması, işlənilməsi və bunların təlimin keyfiyyətinə təsir dərəcəsini müəyyənləşdirməklə bağlıdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədini orta məktəblərdə Azərbaycan dili təliminin məzmununu müəyyən etmək, şagirdlərdə nitq mədəniyyətini inkişaf etdirmək, Azərbyacan dilinin öyrənilməsində problemlərin aşkara çıxarılması təşkil edir. Tədqiqat işinin qarşısında qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələri həll etmək zərurəti yaranır:

-Azərbaycan dilinin məzmununu müəyyənləşdirmək;

-hər şəraiti, xüsusilə şagirdlərin anlama və analiz etmə qabiliyyətlərini nəzərə alan təlim keyfiyyətlərini inkişaf etdirə biləcək üsul və vasitələri elmi baxımdan müəyyənləşdirmək;

- Azərbaycan dilinin öyrənilməsi prosesində rast gəlinən metodik problemlərin həlli yollarını müəyyənləşdirmək;

- dərs prosesində təbii maraq və motivasiyanı qoruyub saxlamaq yollarını müəyyənləşdirmək;

- tədqiqat işinin mövzusu ilə bağlı metodiki və psixoloji-pedaqoji ədəbiyyatı araşdırmaq;

-şagirdlərdə problem-axtarış qabiliyyətini inkişaf etdirmək;

- Azərbaycan dili dərslərinin səmərəliliyini artırmaq üçün informasiya texnologiyalarından (informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə etmək.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan dilinin tədrisində innovativ metodlardan istifadənin didaktik əsaslarının nəzərdən keçirilməsi, onun mənimsənilməsindəki problemlərin aşkarlanması və onların həlli yolunda araşdırmaların aparılması tədqiqat işinin elmi yeniliyi hesab edilə bilər.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Azərbaycan dilinin tədrisinə dair materialların hazırlanmasında, auditoriyada Azərbaycan dilinin mənimsənilməsinə

dair vəsaitlərin hazırlanmasında işin nəticələrindən istifadə olunması ilə izah oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti** kimi onun nəzəri nəticələrinin Azərbaycan dilinin tədrisi prosesinə töhfəsi, habelə onun öyrənilməsində rast gəlinən linqvistik və psixoloji çətinliklərin aradan qaldırılmasına tövsiyələrin verilməsi kimi qiymətləndirilə bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

-təlim prosesində müasir və ənənəvi metodlara məqsədyönlü yanaşmanın əhəmiyyəti;

- Azərbaycan dilində dil bacarıqlarının (fonetik, leksik, qrammatik) uğurla formalaşması məqsədilə istifadə olunan metodların müəyyən olunması;

- tədris prosesində fəal təlim metodlarının tətbiqi ilə şagirdlərin passivliyinin aradan qaldırılması, onların hər birində yaradıcı təfəkkürün inkişaf etdirilməsi və eyni zamanda tədris keyfiyyətini xeyli yüksəldilməsi istiqamətində işlərin aparılması;

**Tədqiqatın metodları.** Tədqiqat işində problemə dair elmi-metodiki ədəbiyyatın öyrənilməsi və təhlili, müqayisə, müşahidə, təcrübi-eksperimental iş, anket üsullarından istifadə edilmişdir.

**Tədqiqat işinin nəzəri-metodoloji bazası.** Dissertasiya işinin nəzəri bazası müxtəlif ədəbiyyatlardan, dərsliklərdən, monoqrafiyalardan və internet resurslarından ibarətdir. Bu mövzuda həm yerli, həm də xarici mənbələrdən istifadə edilmişdir.

**Tədqiqat işinin aprobasiyası.** İş Azərbaycan Dillər Universitetinin Azərbaycan dilçiliyi kafedrasında müzakirə edilmiş və tədqiqat işinin mövzusu ilə bağlı bir məqalə çap olunmuşdur.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Hər iki fəsil iki yarımfəsildən ibarətdir.

Birinci fəsildə ənənəvi dərs metodu, bu metodun mahiyyəti, ona verilən əsas tələblər və səciyyəvi xüsusiyyətləri haqqında ümumi məlumat verilmişdir.

İkinci fəsildə isə müasir təlim metodları, həmin metodların özünəməxsus xüsusiyyətləri, müasir və ənənəvi metodların müqayisəli təhlili haqqında ümumi məlumat verilmişdir.

# I FƏSİL. ƏNƏNƏVİ DƏRSLƏRİN MAHİYYƏTİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Ənənəvi dərslərin özünəməxsusluğu

Müasir həyat getdikcə insanın qarşısına daha çox ciddi tələblər qoyur - bu, yüksək keyfiyyətli təhsil, ünsiyyətcillik, fədakarlıq, yaradıcılıq və ən əsası isə informasiya axınında mühüm olan informasiyanı seçmək qabiliyyətidir. Şagirdləri həyata hazırlamağın təməli məktəbdə qoyulur, ona görə də bu gün təhsilə olan tələblər onun prioritetlərini dəyişir. Təhsilin məqsəd və məzmunu köklü şəkildə dəyişir, təhsilin yeni vasitələri və texnologiyaları meydana çıxır, lakin bütün müxtəlifliyi ilə yanaşı dərs tədris prosesinin təşkilinin əsas forması kimi qalmaqda davam edir. Hal-hazırda XXI əsrdə təhsilin tələblərini həyata keçirmək üçün dərs müasir standartlara cavab verməlidir. Müasir dedikdə yeni, keçmişlə əlaqəsini itirməmiş, bir sözlə, aktual olan nəzərdə tutulur. Bundan başqa, əgər tədris metodları müasirdirsə, onda o, şagirdlərin gələcək inkişafın bünövrəsini təşkil edir.

Təhsilin strateji məqsədinin müəyyən edilməsində başlanğıc nöqtə cəmiyyətin gənc nəslə münasibətdəki sosial sifarişidir. Məktəb təhsilinin strateji məqsədini müəyyən edərkən, aşağıdakı suallara cavab vermək lazımdır: şagirddə hansı keyfiyyətlər, bilik və bacarıqlar formalaşmalıdır ki, o, bu gün və sabah sürətlə dəyişən dünyada “rahat mövcud ola bilsin”. Müasir dünya bu qədər sürətlə dəyişirsə və həyat fərddən bu dəyişikliklərdə fəal və eyni zamanda müsbət iştirak etmək bacarığını tələb edirsə, onda təbii olaraq - Məktəb gənc nəsli nəyə hazırlamalıdır? sualı ortaya çıxır.

Bildiyimiz kimi, bu gün məktəblərdə Azərbaycan dilinin tədrisinə ayrılan akademik saatların sayı yetərli deyildir. Azərbaycan dilini tədris edən müəllimin əsas vəzifəsi isə şagirdlərdə rabitəli nitq vərdişlərini inkişaf etdirmək, düzgün yazı qaydalarını öyrətmək, Azərbaycan dilinə qarşı məhəbbət, rəğbət hissi oyatmaq və tərbiyə etməkdir.

Məlumdur ki, müasir dövrdə "dil sahəsində təhsil sistemi" anlayışı ən azı üç mənada işlənə bilər:

1) dildə bir proses və ya tədris proseslərinin məcmusu kimi;

2) dilin öyrənildiyi təhsil müəssisələri sistemi, yəni sosial institut kimi sistem kimi;

3) cəmiyyətin vətəndaşlarının Azərbaycan dilinə yiyələnməsi sosial-mədəni fəaliyyət sahəsi kimi.

Bu da təsadüfi deyildir, çünki Azərbaycan dili, o cümlədən, bütövlükdə dil sahəsində təhsil sistemi mürəkkəb sosial obyektdir və onun təhlili bu obyektdən hər biri bütövün müəyyən mənzərəsini təmsil edən müxtəlif "kəsiklər"lə müşayiət olunur. Öz növbəsində, dövlət dilində təhsil sistemi ölkəmizdə ümumi təhsil sisteminin yalnız ayrıca bir elementidir və birincinin təhlili (onun obyektiv olaraq mövcud spesifikliyi qəbul edilsə belə) bu vəziyyəti nəzərə almaya bilməz.

Ənənəvi dərs bu gün də məktəbdə əvvəlki kimi əsas tədris forması olaraq qalmaqdadır. Bunu onunla izah etmək olar ki, müəllimlərin, pedaqoqların əksər hissəsi artıq bir il deyil, neçə illərdir ki, məktəblərdə ənənəvi tədriq metodikası üzrə çalışmışlar. Hər bir işdə olduğu kimi, tədrisdə də insanın köhnə ənənə və vərdişlərindən imtina etməsi asan məsələ deyildir. Beləliklə, yeni metodlar əsasında işləmək üçün müəllimə zaman və ciddi səylər lazımdır.

Ənənəvi dərs prosesində təlim müəllim-dərslik-şagird ardıcıllığına əsaslanırdı. Lakin hal-hazırda müasir dərslər şagird-dərslik-müəllim ardıcıllığı ilə təşkil olunur. Bunun nəticəsində də şagirdlərin hərtərəfli inkişafına zəmin yaradılır. Şagird-dərslik-müəllim ardıcıllığı ilə baş tutan tədris modelində kompüterdən istifadəyə başlanılması

dərs prosesini individual proqram üzrə qurmağa, şagirdin marağını əvvəlkindən daha çox dərsə yönəltməyə, istəyini daha da artırmağa imkan verir.

Müəllimlər dərs prosesində ənənəvi metodlardan istifadə edirsə, əvvəlki qaydada öyrətməyə davam edirsə, onda onlar bugünkü səviyyədə dilin tədrisinə nail ola bilməzlər. Buna görə də dilin tədrisi prosesini şagirdlərdə dilə qarşı güclü maraq oyatmaq və motivasiya yaratmaq istiqamətində yeniləmək mütləqdir. Tədris prosesi şagirdlər üçün darıxdırıcı və əzabverici işə çevrilməməlidir.

Təlimin əsas obyekti dərsdir və buna görə də bütün cəhdlər dərsin təşkilinə, bilik, səriştələrin formalaşmasında istifadə edilən metodların seçilməsinə yönəlmiş olur. Bunun məntiqi davamı kimi müasir təlim prosesində əsas diqqət müəllim – şagird, şagird – şagird münasibətlərinin səmərəli həlli problemlərinə istiqamətlənmişdir. Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, “ənənəvi pedaqoji sistemlə yeni pedaqoji təfəkkür arasında fərq yalnız “dərs məkanında” açıqlana bilər [10, s. 34]. Müəllifin qənaətinə görə, “müasir dərs” haqqında təsəvvürlərin formalaşması yeni pedaqoji təfəkkürün bərqərar olmasında həlledici əhəmiyyət qazanmışdır” [10, s. 34]. Sitatdan da göründüyü kimi, yeni pedaqoji təfəkkürün yaranması və formalaşması müasir dərsin təməl prinsipini təşkil edir.

Bu gün müasir dərs anlayışı altında, bir qayda olaraq, fəal, idraka əsaslanan öyrənmə, şagirdlərin tədqiqatçı mövqeyində olduğu mənimsəmə prosesi başa düşülür. Çoxsaylı pedaqoji tədqiqatlarda fəal öyrənmə şagirdləri idraka əsaslanan fəaliyyətə cəlb etməklə problemlərin asan həlli yollarını araşdıraraq tapmağa, yeni yanaşmalar, fikirlər, ideyalarla çıxış etməyə, qarşıya qoyulan çoxsaylı məqsədləri şagirdlər ilə birlikdə həll etməyə ruhlandıran proses kimi izah edilir.

Lakin bu ifadə heç də o demək deyil ki, Azərbaycan dilinin tədrisi prosesi tamami ilə təbii danışığa bənzədilməlidir. Təbii ki, hər hansı bir dilin mənimsənmə prosesləri eyni fundamental mənimsəmə qanunlarına əsaslanır və mənimsəmə obyekti əsas etibarilə eynidir. Lakin təlim prosesində əsas məsələ, Azərbaycan dilinin öyrənilməsini asanlaşdırmağın ən optimal yol, üsul və metodların axtarışıdır. Odur ki, fikrimizcə metodik problemlər bir-biri ilə sıx bağlı olan iki aspektdə nəzərdən

keçirilməlidir: 1) müəllimin tədris fəaliyyəti mövqeyindən, 2) yeni tədris fənninin mənimsənməsində şagirdin fərdi fəaliyyəti baxımından.

Qeyd edək ki, bu gün məktəblərdə əsas götürülən şəxsiyyətyönümlü prinsipin ən başlıca şərti dərs prosesində iştirak edən şagirdin bilik, vərdiş və bacarıqları dərk edilmiş, qavranılmış formada mənimsəməsidir. Azərbaycan dili dərslərində şagirdlərə linqvistik vahidlərin (leksem, cümlə) funksional yönümlü, kommunikativ yönümlü təlimindən danışarkən, şagirdlərin sadəcə fonetik, qrammatik, sintaktik qayda və qanunların öyrədilməsini deyil, daha çox şagirdlərdə rabitəli nitq vərdişlərini inkişaf etdirməklə şagirdlərdə ilk növbədə dil vərdişlərinin inteqrativ qaydada, yəni danışıq, eşidib-anlama, oxu və yazı vərdişləri ilə eyni zamanda formalaşdırılmasını özündə ehtiva edir.

Azərbaycan dili dərslərində əsas məqsəd şagirdlərdə yuxarıda qeyd etdiyimiz kimi, nitq vərdişlərini inkişaf etdirməkdir. Ümumtəhsil, praktik, tərbiyəvi və inkişafetdirici məqsədlərin formalaşmasının reallaşmasına kompleks yanaşma öyrədənə-müəllimə həmin məqsədlərdə bir neçə tərkibi – linqvistik, sosiolinqvistik, strateji səriştəni və sosial səriştəni fərqləndirməyə imkan verir. Hal-hazırda təlim prosesində təlimin prinsipləri tədris prosesinə, vasitələrinə, məqsədlərinə, təşkili formalarına, metodlarına olan tələbləri müəyyən edən ən əsas və ilkin şərtdir.

Bu gün dilin sadəcə qrammatik qaydalarını, leksik fondunu bilmək kifayət deyildir. Həmçinin gündəlik həyatda, ünsiyyətimizdə dildən yüksək səviyyədə istifadə etmək qabiliyyəti artıq zəruri məsələ halına gəlmişdir. Burada söhbət qazanılmış dil biliklərindən praktik istifadə etmək bacarığından, əsasən, nitq vərdişlərinin aşılanmasından gedir.

Şagirdlərdə rabitəli nitq vərdişlərinin formalaşdırılması zəruridir. Çünki bu bacarıqlar olmadan Azərbaycan dilində zəruri praktik qabiliyyətləri formalaşdırmaq mümkün deyildir. Kommunikativ bacarıq, yazı vərdişləri və ya şifahi ünsiyyət aparmaq bacarığı anlayışı yalnız məlumatların ötürülməsi və ya alınması prosesi deyil, həm də tərəfdaşlar arasında münasibətlərin tənzimlənməsidir.

Təlim prosesində Azərbaycan dilində düzgün yazmağı, fikrini ədəbi dildə doğru ifadə etməyi, səlis, rəvan danışmağı, dinləməyi bacarıqlı və effektiv şəkildə öyrətməyin ünsiyyət forması kimi şifahi nitqin xüsusiyyətlərini başa düşmək lazımdır. Bu xüsusiyyətlərə isə aşağıdakılar daxil edilməlidir:

- ikitərəflilik, yəni hər hansı ünsiyyətdə iki iştirakçının və müvafiq olaraq iki prosesin olması – məlumatın ötürülməsi və onun dinləyən (və ya dinləyənlər) tərəfindən qavranılması;

- eynizamanlılıq - deyilənlər dinləyici tərəfindən dərhal qəbul edilir və şifahi-nitq qarşılıqlı əlaqəsinin bütün prosesi həm danışan, həm də dinləyici tərəfindən idarə olunur. Şifahi nitq həmişə apellyasiya xarakteri daşıyır;

-situativlik - istənilən danışıq prosesi situasiya ilə şərtlənir. Məhz kommunikativ aktın baş verdiyi situasiya dil vasitələrinin seçimini və ünsiyyətin xarakterini müəyyən edir;

- ekstralinqvistik amillərin mövcudluğu. Təlim prosesində danışan və dinləyici eyni zamanda həm verbal, həm də qeyri-verbal ünsiyyət kanallarından istifadə edirlər. İnformasiya təkcə dil vasitəsiilə deyil, həm də vizual, sensor-toxunma təmasları (əl sıxma, jest və s.) vasitəsilə ötürülür.

Ənənəvi dərs şagirdlərdə didaktik bacarıqları formalaşdırmalıdır. Bu bacarıqların formalaşdırılması müəyyən didaktik vəzifələrin qoyulmasını və həllini tələb edir.

Ənənəvi dərs ümumtəhsil problemini həll edir - şagirdləri biliklərlə təchiz edir və əsasən izahlı və illüstrativ üsula əsaslanır. Belə dərsdə əyani vəsaitlərdən geniş istifadə olunur, müşahidə və görülənlərin təsviri təşkil olunur. Müxtəlif metodların və tədris vasitələrinin kombinasiyası əsasında biliyin formalaşması üzrə müasir dərs bir sıra problemləri həll edir. Həm izahlı, həm illüstrativ, həm də qismən axtarış, tədqiqat-tədris metodları, müzakirələr, müxtəlif bilik mənbələri, televiziya proqramları, kino çarxları, lent yazıları, multimedia kursları, internet texnologiyaları və digər texniki təlim və nəzarət vasitələrindən istifadə olunur.

Belə dərslərdə idrak problemlərinin həllinə, yaradıcılıq potensialının reallaşdırılması üçün təkliflərin verilməsinə daha geniş imkanlar yaradılır, bir sözlə, şagird şəxsiyyətinin hərtərəfli inkişafına şərait yaradılır.

Müasir təhsilin əsas məqsədi tədrisin effektivliyini artırmaq, ağlı, güclü düşüncəsi, hadisələrə müxtəlif aspektlərdən yanaşması, mövcud potensial enerjisi, yüksək analizetmə qabiliyyəti ilə elmləri, fənləri əsaslı şəkildə öyrənən və ən başlıcası isə öyrəndiklərini yüksək səviyyədə tətbiq etmə bacarığına sahib olan, istənilən vəziyyətlərdə düzgün davranmağı bacaran yüksək zəkalı gənclər yetişdirməkdən ibarətdir. Bunun üçün dərslərdə yeni təlim metodlarının tətbiqi vacib şərtdir. Elmi-texniki tərəqqinin vüsət aldığı bir dövrdə ənənəvi üsullara istinad edərək, yeni fəal-interaktiv təlim metodlarından istifadə etmək, onları yetərincə dərk etmək və dərsləri bu istiqamətdə qurmaq müəllimlərdən yüksək qabiliyyət və səriştə tələb edir. Amma o fakt da məlumdur ki, ənənəvi elmi tövsiyələrin müasir informasiya-təhsil məkanında dəftər-kitaba az meyilli, rəqəmsal düşüncəli yeni nəsil uşaqların təliminin təşkilində səmərəsi yetərli deyildir. Ancaq əvvəlcə ənənəvi dərsin müsbət və mənfi cəhətləri birlikdə anlamağa çalışaq.

Ənənəvi dərsin quruluşu

1.Ev tapşırığının yoxlanılması

2.Öyrənilən mövzuların sorğusu(frontal və fərdi sorğu)

3.Yeni mövzuya dair mühazirə (yeni mövzunun izahı)

4.Aydın olmayan məsələlərin açıqlanması və dəqiqləşdirilməsi

5.Yeni dərsin möhkəmləndirilməsi üçün sual və tapşırıqlar

6.Reproduktiv(təkraredici) tətbiq etmə

7.Qiymətləndirmə [27].

Ənənəvi dərsin sturukturu ilə bağlı aşağıdakı nümunəyə diqqət yetirə bilərik:

**Evə tapşırıq:** Evdə verilmiş mətn parçasından əsas nitq hissələrinin seçilməsini şagirdlərə tapşırıram.

**Dərsin gedişi:**

1. Müəllim ev tapşırığını yoxlayır;

2. Əsas nitq hissəsi mövzusunu fərdi və ya frontal şəkildə sorğu-sual edir;
3. Yeni mövzunu izah edir (Köməkçi nitq hissələrinin təsnifi)
4. Köməkçi nitq hissələrinin təsnifi ilə bağlı şagirdlərə qaranlıq qalan məqamları dəqiqləşdirir;
5. Evə tapşırdığı mövzunun möhkəmləndirilməsi məqsədilə yeni dərslə bağlı sual və tapşırıqlar verir;
6. Öyrədilən yeni biliklərin yadda qalması üçün nümunə və qaydalar tətbiq edilir;
7. Hər bir şagird fərd şəkildə qiymətləndirilir.

Bu strukturun əsas problemi ondan ibarətdir ki, müəllim həmişə zaman məhdudiyyəti ilə rastlaşır və o, informasiya ötürücü funksiyasını yerinə yetirir. Müəllimin xüsusi ilə son dərslərdə yüksək yorğunluğu uşağın fərdi xüsusiyyətlərini nəzərə almağa, problemə marağı dərs boyu saxlamağa imkan vermir. Müəllim əlaçı şagirdlərin tələbatını nəzərə almadan, bir qayda olaraq, orta qabiliyyətli şagirdlərlə işləyir və motivasiyası nisbətən zəif olan şagirdlərlə maraqlana bilmir. Deməli, ənənəvi dərs sonrakı dərs növlərinin əsasını təşkil edir, neçə-neçə nəsillərin öyrədildiyi və tərbiyə olunduğu bütöv bir tarixdir. Ənənəvi dərs bu günün reallığıdır: müəllimlərin 60%-dən çoxu hələ də ənənəvi formada dərs keçməyə üstünlük verir. Lakin müasir müəllim texnoloji dəyişikliklərə ehtiyac duyur, çünki müasir dünyada təhsilin, dərsin, məzunun keyfiyyətinə tələblər yüksəkdir. Uşaqlar dünyanı sürətlə dərk etdikləri üçün düşünməyi, hiss etməyi, dərk etməyi bilən müəllimə maraq göstərirlər.

Yeni Standartlar müasir müəllimə olan tələbləri formalaşdırır. Müasir müəllim aşağıdakı xüsusiyyətlərə sahib olmalıdır:

- Öz sahəsində kifayət qədər məlumat sahibi olmalı;
- Tərbiyə etmək xüsusiyyətinə malik olmalı;
- Özünü dəyişdirə, inkişaf etdirə, yeniləyə bilməli;
- İnkişafda olan texnologiyadan istifadə edə bilməli;
- Özünə inamlı və cəsarətli olmalı;
- Problemləri həll edən və müəyyən naticəyə gələ bilən olmalı;
- Humanist olmalı;

- Cəza və mükafatlardan konstruktiv (faydaverici) və təşviqedici formada istifadə etməli;
- Şagird soruşmaq imkanı verməli;
- Bütün şagirdləri bərabərhüquqlu görməli və rəftar etməli və s. [26].

Ənənəvi dərsdə müəllim dərs yükünün 80% öz üzərinə götürür. Lakin müasir dərsdə müəllimin mövqeyi dəyişir. Dərs yükünün əsas ağırlığını öz üzərinə götürən müəllim, ənənəvi təhsilin prinsiplərindən uzaqlaşaraq, tədricən dərs yükünün ağırlığını şagirdlərlə bölüşməyə başlayır. Bununla da onlar, əslində, "obyekt"dən "mövzu"ya keçirlər. Müəllim buna görə də öz əsas funksiyasından - öyrətməkdən azad deyildir. O, yeni üsulla dərs deməyə başlayır.

Dərs prosesində müəllimin məqsədi hər bir şagirdə dilin mənimsənməsi üçün münasib şərait yaratmaqdan, onların fəallığını və yaradıcılığını inkişaf etdirməyə imkan yaradan metodları seçməkdən ibarətdir. Azərbaycan dili müəlliminin vəzifəsi şagirdlərdə kommunikativ bacarıqları formalaşdırmaq və dilin tədrisi prosesində idrak fəaliyyətini sistemləşdirməkdən ibarətdir. Ənənəvi metodlarla təşkil olunan dərsdə rast gəlinən məsələlərdən biri də bu idi ki, bəzi hallarda şagirdlər öz fəaliyyətlərində passiv olaraq təkrarlama hadisəsini həyata keçirirdilər. Onlar təqdim olunan biliklər üzərində sərbəst düşünmək yerinə, daha çox mexaniki yadda saxlamağa, mövcud biliyi təkrar etməyə çalışırdılar. Təbii olaraq, bu da dərsə həvəs və maraq yaratmırdı, şagirdləri düşünməyə məcbur etmirdi. Ənənəvi dərsdə mahiyyət etibarı ilə müəllim adətən daha yaxşı hazırlaşana və fəal şagirdə arxalanırdı, çünki o, digərləri ilə müqayisədə materialı həm tez qavrayır, həm də onu sürətlə yadda saxlayırdı. Ənənəvi təlim metodundan fərqli olaraq, interaktiv təlim metodu ilə təşkil olunan dərslər isə sinifdəki bütün şagirdləri fəallaşdırır, şagird və müəllim arasında uyğun psixoloji mühit yaranır və beləliklə, hər iki tərəfin qarşılıqlı əməkdaşlığı təmin olunmuş olur.

Ənənəvi dərs sistemində müəllim və dərslik biliyin mənimsənilməsi üçün ən əsas mənbədir. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslərdə müəllim öyrənənlərin sərbəst fəaliyyətinin təşkilatçısı funksiyasında çıxış edir, bir qayda olaraq,

məsləhətçi və ya köməkçi rolunda çıxış edir, öyrənənlər isə bilikləri aktiv təfəkkür fəaliyyətləri nəticəsində əxz edirlər. Bu isə şagirdlərdə kommunikativ bacarıqların yaranması və inkişafına yardım edir, onlarda tənqidi təfəkkürü inkişaf etdirir.

Hal-hazırda tədris prosesində müstəqil bilik əldə etmək, lazımi məlumatları toplamaq, fərziyyələr irəli sürmək və nəticə çıxarmaq bacarığını formalaşdıran üsul və metodlardan istifadə tədris prosesində getdikcə aktuallaşır. Bu isə o deməkdir ki, müasir şagirddə müstəqil təlim fəaliyyətini təşkil etmək bacarığını təmin edən universal təlim fəaliyyətləri formalaşmalıdır.Təlimdə tanınmış yanaşma sistemli-fəaliyyət yanaşması, yəni təlimin təşkilinin layihə formasının problemlərinin həllinə yönəlmiş bir təlimdir. Bu yanaşmada vacib məqamlar aşağıdakılardan ibarətdir:

- idrakın aktiv formalarından istifadə: müşahidə, təcrübə, təhsil dialoqu və s.;

- refleksiyanın inkişafı üçün şəraitin yaradılması - öz fikir və hərəkətlərini san-ki kənardan həyata keçirmək və qiymətləndirmək, fəaliyyətin nəticəsini məqsədlə əlaqələndirmək, öz bilik və savadsızlığını müəyyən etmək və s.

Beləliklə, məktəb məlumat mənbəyinə çevrilmir, çünki o, necə öyrənməyi öyrədir; müəllim biliyin dirijoru deyil, yeni biliklərin müstəqil mənimsənilməsinə və mənimsənməsinə yönəlmiş yaradıcı fəaliyyət yolu ilə dərs deyən şəxsdir. Müasir dərsdə müəllim və şagird keyfiyyətcə yeni mahiyyət kəsb edir. Zamanın tələblərindən irəli gələrək müasir dərsə yanaşma da kökündən dəyişir.

Ənənəvi və müasir dərslər aşağıdakı göstəricilərə görə fərqlənir: dərsin məqsədləri, dərsdə müəllimin rolu və funksiyaları, müəllim və şagirdlər arasında münasibətlərdə dəyişikliklər, təlim prosesinin qurulmasında məntiqi, fənlərarası əlaqələrdən istifadə, kollektiv təlim fəaliyyətlərinin tətbiqi və s.

Z.Veysovanın da qeyd etdiyi kimi, "ənənəvi təlim sisteminin problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya-kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənlərə çatdırmaq, həm də mənimsətmək, əslində, qeyri-mümkünə

çevrilir. ... Buna görə də müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi öyrətməkdir, yəni şagirdləri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir” [23, s. 10].

İnteraktiv tədris fəaliyyətində müəllim vasitəçi və imformasiya təminatçısı kimi çıxış edir. İnteraktiv dərslər şagirdlərin müəllimdən, dərslikdən və avtoritar mühitdən asıllıqlarını aradan qaldırır.

Azərbaycan dili dərslərində interaktiv metodlardan istifadə dilin pedaqoji, psixoloji və sosial funksiyalarını nəzərdə tutur. Pedaqoji funksiya dedikdə, burada şagirdlərin dilin inkişafyönümlü mühitdə qazanılmasına təsir göstərən şərtləri nəzərə almaq lazımdır:dil mühitinin yaradılması, strateji metodlar və dəyərləndirmə. Təlim prosesində psixoloji funksiya altında isə şagirdlərin bir-birinə qarşılıqlı təsirləri, səyi və maraqlarının üstünlüyü motivasiyanın olması və özgüvənlik hissinin yaranması başa düşülür. İnteraktiv təlimin mahiyyətinə münasibətdə qeyd etmək istərdik ki, bu təlimdə ünsiyyət bacarıqlarının yüksək səviyyədə olması tələb olunandır və təlim şagird təşəbüsünün iştirakı ilə baş verir.

Müraciət olunmuş mənbələrdəki ortaq məqam ondan ibarətdir ki, onların hər birində interaktiv dərslərdə müəllimin vasitəçi, informasiyanın təminatçısı, şagirlərin isə müəllimdən, dərslikdən və avtoritar tədris mühitdən asılılığının aradan qaldırılması qeyd edilir. Dərs prosesinə müasir metodların tətbiqi həm də şagirdlərdə özünə inam hissini formalaşdırır.

Ənənəvi metodla aparılan dərsdə şagird passiv mövqedədir, müəllim aktiv rolda çıxış edir. Ənənəvi metoddan istifadə prosesində şagirdin öz fikrini və özünü ifadə etməsinə şərait yaradılmır. Bu cür metodla işləyən müəllim dərsi yalnız nəzəri cəhətdən izah edir, amma onu real həyatla əlaqələndirməyə cəhd etmir. Ənənəvi metodla aparılan dərsdə müəllim bilikləri şagirdlərə çatdırmağa çalışır, onlar isə təqdim olunan materialları passiv şəkildə mənimsəyir. Ənənəvi metodun tətbiqi ilə keçirilən dərsdə şagirdlər materialları mexaniki yadda saxlayırlar. Bunun nəticəsi kimi onlar bir müddət keçdikdən sonra öyrəndikləri materialların xeyli hissəsini unudurlar. Çünki onlar dərs prosesində öyrəndikləri bilikləri tətbiq edərək dərindən mənimsəmirlər.

Ənənəvi dərsdən fərqli olaraq, fəal dərs prosesində müəllim və şagird hər biri özünə aid mövqe tuturlar. Müəllim bələdçi, əsas mövqeydə dayanır və problemli vəziyyətləri bilərək və məqsədli şəkildə təşkil edir. Dərsin gedişində şagirdlər qarşısında problemin qoyulmasına şərait yaradır və onların həllində şagirdlərə metodik yardım göstərir. Fəal dərsdə şagird "kəşf edən" "tədqiqatçı" mövqeyində qərarlaşır. Şagird dərsin gedişində üzləşdiyi problemləri müstəqil tədqiqat nəticəsində həll etməyə çalışır. Fəal dərsdə şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçısı kimi çıxış edirlər və bilikləri fəal axtarış prosesində mənimsəyirlər. Bu gün yeni təlim metodlarının tətbiq edilməsi ilə aparılan interaktiv dərslər bir sıra üstün cəhətlərinə görə ənənəvi dərslərdən fərqlənir. Ənənəvi və interaktiv dərslərin hər birinin kifayət qədər özünəməxsus spesfik xüsusiyyətləri mövcuddur və bunu onların müqayisəsi əsasında daha aydın müşahidə etmək mümkündür.

Ənənəvi dərsin məqsədləri bilik və bacarıqların mənimsənilməsinə yönəldilir. Müasir dərsin məqsədləri təhsilin bütün komponentlərindən istifadə edərək şəxsiyyətin formalaşması və davamlı inkişafıdır. Ənənəvi təlimdə müəllim və şagirdin təlim prosesinin başlıca iştirakçıları olmasını, müəllimin hazır biliklər ötürməsi – şagirdin ötürülən məlumatı qəbul etməsi və yadda saxlaması prosesini aşağıdakı sxem kimi təqdim etmək mümkündür.

## 1.2. Ənənəvi dərslərdə üstünlük verilən metodlar

Son onillikdə ümumilikdə təhsilə münasibətdə yeni təhsil və tərbiyə paradiqminə keçidlə əlaqədar olaraq Qərbdə səriştəyə əsaslanan yanaşma geniş vüsət almışdır. Bu yanaşma çələbələrin şəxsi keyfiyyətlərinin inkişafına yönəlib, təhsilin praktiki yönümünün əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutur, həmçinin təhsilin humanist dəyərləri ilə əlaqələndirilir. Buraya dəyər yönümləri sistemi, təlim nəticələri (bilik, bacarıq və bacarıqlar), vərdişlər və s. daxildir.

Müasir dövrdə metodologiyanı nəzəri və tətbiqi elm kimi başa düşmək, ümumiyyətlə, qəbul edilir, onun predmeti təhsilin məqsədlərini, məzmununu elmi əsaslandırmaq, o cümlədən, təhsilin məqsədləri, məzmunu və konkret şərtləri nəzərə

alınmaqla, onun ən təsirli metod, üsul və formalarının elmi cəhətdən işlənib hazırlanmasıdır. Lakin bir faktı etiraf etmək lazımdır ki, hazırda bir elm kimi metodologiyada, hər hansı digər inkişaf edən elm kimi, vaxtaşırı özünü rastlaşdığı böhran dövrünü keçirir. Yaranmış bu böhran bir sıra səbəblərdən qaynaqlanır və bunlardan ən əsası, fikrimizcə, bunlardır:

- dilin tədrisi üçün yeni şərtlərlə ənənəvi metodik üsullar arasında əsas və əlaqəli elmlərin müasir inkişaf səviyyəsinə heç də həmişə adekvat olmayan ağlabatan "tarazlığın" olmaması;

- metodik problemlərin nəzərdən keçirilməsinə konkret təlim şəraitində öyrənilən dilin mənimsənilməsi proseslərinin xüsusiyyətləri, şagirdlərin real maraqları və ehtiyacları baxımından deyil, daha çox müəllimin "müəllim fəaliyyətinin" maraqları nöqteyi-nəzərindən yanaşma.

Elmin böhranlı vəziyyətini, xüsusən, müasir təhsil nəzəriyyəsində məqsəd qoyulması, təhsilin məzmununun seçilməsi və tərtibi, tədris metodlarının seçilməsi və s. ziddiyyətli və əksər hallarda əsaslandırılmamış baxışların ortaya qoyulması ilə izah etmək olar. Tamamilə aydındır ki, yaranmış böhrandan tədris prosesinə pərakəndə metodlar və üsullar deyil, ayrı-ayır, lakin uğurlu tədris metodlarını tədris prosesinə daxil etməklə mümkündür.

Bunun üçün metodoloji problemlərin yeni konseptual həllini əsaslandırmaq və dil üzrə tədris prosesin əsas qanunauyğunluqlarını müəyyən etmək üçün həqiqi inteqrativ yanaşmanın tətbiq etməklə tədris metodlarının səmərəliliyinin qiymətləndirilməsinin obyektiv elmi əsası və onların gələcək inkişafının metodologiyasının nəzəri əsaslarını gücləndirmək lazımdır. Bunu etmək isə linqvodidaktik məlumatlar sayəsində metodologiya elminin nəzəri əsaslarını gücləndirmək deməkdir. Sonuncuya müraciət həm də ona görə aktualdır ki, yeni təhsil paradiqmində metodoloji problemlər onların təkcə fənnin tədrisi mövqeyindən deyil, həm də müxtəlif təhsil şəraitində şagirdin dil mənimsəməsi prosesləri nöqteyi-nəzərindən başa düşülməsini tələb edir. Söhbət dilin mənimsənməsində konkret bir dilin materialı üzrə empirik araşdırmaları ilə möhkəmlənmiş obyektiv məlumatların alınmasından deyil (bu məlumatlar xüsusi me-

todologiya sahəsindən qaynaqlanır), konkret təlim şəraitindən asılı olmayaraq, dilin mənimsənilməsi prosesinə təsir edən bütün amillərin dərindən nəzəri əsaslandırılmasından gedir.

**Sxem 1.2.1.**

**Dilin tədrisində əsas məqsəd və vəzifələr**




Sxemdən də göründüyü kimi, Azərbaycan dili dərslərində təlimin bütün tərkibləri öz aralarında qarşılıqlı əlaqə münasibətindədirlər və biri digərini şərtləndirir, yəni ierarxik münasibətdədirlər. Azərbaycan dilinin tədrisində əsas məqsəd şagirdlərdə rabitəli nitq vərdişlərini, savad təlimi, düzgün yazı qaydalarını formalaşdırmaqdan ibarətdir. Bu komponentlərdən hər hansı birinin nəzərə alınmaması isə şagirdlərdə fikrini aydın, doğru ifadə etməkdə özünün mənfi əksini tapmalıdır, çünki rabitəli nitq vərdişlərinə yiyələnmək Azərbaycan dili dərslərinin əsas istiqamətidir.

Rabitəli nitq vərdişlərinə yiyələnmək sosial fəal şəxsiyyətin formalaşması üçün ən zəruri şərtlərdən biridir. Məktəbdə təhsilin məqsədləri müxtəlifdir. Fikirlərini sərbəst şifahi və yazılı formada aydın və anlaşıqlı ifadə etmək, düzgün danışmaq, rəvan və səlis tələffüzə malik olmaq, öz emosiyalarını müvafiq intonasiya ilə ifadə etmək, nitq mədəniyyətinə riayət etmək və nitq mədəniyyətini inkişaf etdirmək bacarığını birinci dərəcəlilərə aid etmək olar. Buna müvafiq olaraq, biz şagirdlərin

nitq mədəniyyətinin inkişaf etdirilməsini tədrisinin müasir mərhələsinin əsas vəzifələrdən biri hesab edirik.

İnsan özünün şüurlu həyatı boyu nitqini təkmilləşdirir. O, bütün həyatı boyu Azərbaycan dilinin zənginliklərinə yiyələnir. Erkən uşaq yaşlarından onun ünsiyyət ehtiyacları yaranır, onu nitqin ən bəsit elementləri vasitəsi ilə qarşılayır, düşüncələrini ifadə etmək ehtiyacı yaşla əlaqədar daima genişlənir. İnkişaf prosesində uşaq get-dikcə daha mürəkkəb dil vahidlərindən istifadə edir, aktiv və passiv lüğət ehtiyatını zənginləşdirir, frazeologiyanın qaydalarını, söz birləşmələri qaydalarını, müxtəlif sintaktik konstruksiyalardan istifadə etməyi öyrənir. Şagird yuxarıda göstərilən bütün dil vasitələrdən öz fəaliyyəti zamanı bütün sahələrdə ünsiyyət ehtiyaclarını ödəmək üçün istifadə edir.

Başqa sözlə desək, şagirdlərin Azərbaycan dilini öyrənməsi prosesi bilavasitə nitq fəaliyyəti prosesində həyata keçirilir. Şagirdlər dərs prosesində rabitəli nitqə yaxşı yiyələnir. Ancaq bu kifayət deyil, çünki bəzən bu, heç də düzgün və səlis olmur, xüsusən də ailədə Azərbaycan dilinin normalarına əməl olunmayan hallarda.

Adətən, şəxsi-fəaliyyət yanaşmasının belə izah edirlər ki, əsasən, təlimin mərkəzində şagirdin istəkləri, məqsədləri, arzuları, motivləri, yəni şagirdin özü dayanır. Şagirdin maraqlarından, onun bilik və bacarıqlarının səviyyəsindən çıxış edərək, müəllim dərsin təlim məqsədini müəyyən edir.

Azərbaycan dilinin tədrisi prosesində şagirdlər və müəllimlər arasında münasibət "birtərəfli" və "çoxtərəfli" ola bilər. Birinci halda biz "müəllim şagirdi nitq fəaliyyətinə dəvət edir / həvəsləndirir – şagird cavab verir" tədris prosesinin təşkilini nəzərdə tuturuq. Bu proses, yuxarıda qeyd etdiyimiz kimi, "stimul-cavab" sxeminə əsasən qurulur. Belə bir tədris paradiqmi frontal adlanan iş formalarının geniş yayılması ilə xarakterizə olunur. "Çoxkanallı" ünsiyyətə gəldikdə, onun üçün tipik iş formaları qrup və kollektivdir, burada hər bir şagirdin müəyyən bir fəaliyyətdə müstəqil və tam iştirakçı kimi özünü sübut etmək imkanı var [bax: sxem 1.2.2].

**Sxem 1.2.2.**

**Təlim prosesində “birtərəfli” və “çoxtərəfli” (cütlüklər üzrə) modeli**



Azərbaycan dili dərslərinin tədrisində digər kommunikasiya modellərindən də istifadə etmək olar. Kollektiv və ya qruplar üzrə model şagirdlər tərəfindən müstəqil şəkildə planlaşdırılan və həyata keçirilən bir proyektdir. Dərsdə cütlərlə və qrupla işdən, əməkdaşlıq əsaslı təlimdən ənənəvi metodda istifadə olunmur. Burada şifahi ünsiyyət digər fəaliyyət növləri (oyunlar, sorğu-sual, jurnal nəşri, axtarış fəaliyyətləri və s.) intellektual və emosional konteksti ilə üzvi şəkildə əlaqəlidir. Beləliklə, o, Azərbaycan dilinin tədrisi prosesində fənlərarası əlaqələri həyata keçirməyə imkan verir (bir çox layihələr, aşağıda görəcəyimiz kimi, inteqrativ xarakter daşıyır), sinifdə ünsiyyətin “dar məkanını” genişləndirməyə və praktik fəaliyyətə istinad etməyə imkan verir [bax: sxem 1.2.3].

**Sxem 1.2.3.**

**Dərsin kollektiv və ya qruplar üzrə müzakirəsi**



Bu metodlardan istifadə şagirdlər üçün yaradıcı bir prosesdir. Şagirdlər müstəqil olaraq və ya müəllimin rəhbərliyi altında onlar üçün şəxsən əhəmiyyətli olan problemin həllini axtarırlar. Bu, əksər hallarda onlardan bilik, bacarıq və bacarıqları müstəqil şəkildə istifadə etmək üçün yeni kontekstə köçürməyi tələb edir. Buna görə də əminliklə demək olar ki, məktəblilər müəyyən səviyyədə dilə kommunikativ sahibliyin göstəricisi kimi yaradıcı səriştəni inkişaf etdirirlər. Eyni zamanda, dərs prosesində məktəblilərin dildən istifadə etməsi üçün təbii və sərbəstdir bir situasiya yaranır [bax: 1.2.3].

İnteraktiv təlimə əsaslanan dərsdə şagirdlər müzakirəyə qoyulan bu və ya digər mövzuya, məsələlərə dair öz münasibətlərini bildirməklə, şəxsi fikirlərini, düşüncələrini əsaslandırmağı, faktlar və hadisələri təhlil etməyi, tədqiqat aparmağa yiyələnirlər. Bu prosesdə eşidib-anlamaq, başqasının danışığını, fikrini dinləmək, növbə ilə danışmaq və şübhəsiz ki, onlarda diskussiya mədəniyyəti kimi vərdişlər formalaşdırır. Didaktikada başqa bir interaktiv təlim üsulundan - "situativ praktikum" üsulundan istifadə olunur. İnteraktiv xarakterli bu metodik iş növü şagirdərdə müəyyən şəxsi təcrübənin olması faktını nəzərdə tutur. Bu zaman şagird və şagirdlər müxtəlif məqsədli situasiyalarda müzakirə prosesinə qoşulurlar. Situativ praktikumda şagird öz maraq və tələbatlarına əsasən qrup və ya komanda şəklində özlərinin seçdikləri situasiyaları müzakirə edir və yekun qərara gəlirlər.

Problemin kollektiv və ya qruplar üzrə müzakirəsində şagird fəaldır, o, yaradıcılıq nümayiş etdirir və müəllimin iradəsinin passiv (ən yaxşı halda yalnız "zahirən" aktiv) icraçısı deyil. Layihə üzərində işləyərkən hər bir şagird, hətta dil baxımından ən zəif və psixoloji cəhətdən daha az fəal olsa da, öz təxəyyül və yaradıcılığını, fəallığını və müstəqilliyini nümayiş etdirmək imkanı əldə edir. Layihə işi şagirdlərin dil öyrənməsinin formal xarakterini ("bilmək lazımdır" prinsipinə uyğun olaraq) istisna etməyə imkan verir və dil öyrənmənin praktiki nəticəsini əldə etmək üçün onların qarşılıqlı əlaqəsini aktivləşdirir.

Bu metod həm də şagird və müəllimin funksional vəzifələrini əsaslı şəkildə dəyişdirir. Birincisi, o, dilin və konkret dərsin tədrisi məzmununun seçilməsində, təşkilində və tərtibində fəal iştirak edir; ikincisi - məsləhətçi, köməkçi, oyunlarda və dərslərdə iştirakçı kimi çıxış edir.

Beləliklə, bütün yuxarıda deyilənlərə əsaslanaraq iddia etmək olar ki, layihə işi təlim prosesinə şəxsiyyətyönümlü və fəaliyyətə əsaslanan xarakter verir və yeni təlim məqsədlərinə tam cavab verir. O, əsas xüsusiyyətlərinə görə Azərbaycan dilinin öyrənilməsi prosesinin autentik dil kontekstində təbii dilin mənimsənilməsi prosesinə yaxınlaşdığı şərait yaradır [bax: sxem1.2.3].

Təlim metodunun düzgün seçilməsi tədrisin səmərəliliyinin ilkin şərtidir. Tədris prosesinin səmərəliliyi isə şagirdlərin bilik, bacarıq və maraqlarından asıl olan amildir. Təlim metodları, bir qayda olaraq, induktiv, təhlil və s. metodlar ilə səciyyələnir. Amma metodlar təfəkkürün inkişafı baxımından öz aralarında fərqlənirlər.

Bu gün biz Azərbaycan dilinin tədrisində təlim metodlarından danışırıqsa, onda mütləq qeyd etməliyik ki, dərsin tədrisi prosesində seçdiyimiz metod həmin fənnin (Azərbaycan dili) predmetinə, məzmununa, xüsusiyyətlərinə və digər bu kimi göstəricilərinə uyğun seçilməli, şagirdlərdə müasir dövrdə əsas hesab edilən bacarıq və dəyərlərin formalaşdırılmasına yönəlməlidir. Məsələn: fizika fənni üçün uğurlu hesab edilən hər hansı bir metod Azərbaycan dilinin tədrisində yararlı metod hesab edilə bilməz. Bu baxımdan metodlardan istifadə zamanı müəllim onları fərqləndirməyi bacarmalı, Azərbaycan dili dərsləri üçün xarakterik olan metodlardan istifadə etməlidir.

Bildiyimiz kimi, metodların təsnifi müəyyən prinsiplər əsasında aparılır. Metodlar müəllim və şagirdin, dərs tiplərinin əsas xüsusiyyətləri nəzərə alınaraq müəyyən başlıqlar altında formalaşdırılır. H.Balıyevin də qeyd etdiyi kimi, “Metodları M.A.Danilov və L.P.Federenko *bilik əldə etməyin mənbəyinə*, İ.R.Paley və İ.T.Oqorodnikov *didaktik vəzifələrinə*, İ.Y.Lemer və M.N.Skatkin *şagirdlərin dərketmə fəaliyyətinə* əsaslanmaqla təsnif etmişdir. Sonuncunun təsnifatının əsasında iki cəhət dayanır:

1. Təlim materiallarının spesifikasının nəzərə alınması.
2. Bacarıq və vərdişlərin tiplərinin nəzərə alınması” [5,s.105].

Ümumiyyətlə, tədris prosesində bu və ya digər xüsusiyyətlərinə görə fərqlənən müxtəlif təlim metodları mövcuddur:

- bilik mənbələrinə görə: verbal (sözlü), əyani və praktik metodlar;

- didaktik vəzifəyə görə: yeni biliyin verilməsi, bilik və bacarıqların möhkəmləndirilməsi, yoxlanması metodları;

- şagirdlərin dərketmə fəaliyyətinə görə: izahlı-illüstrativ, reproduktiv, problemli şərh, qismən axtarış və evristik, tədqiqatçılıq metodları;

- təlimin mərhələlərinə görə: yeni tədris materialının əsasən qavranmasına xidmət edən üsullar;
- bilik, bacarıq və vərdişlərin formalaşmasına xidmət edən üsullar;
- bilik, bacarıq və vərdişlərin tətbiqinə xidmət edən üsullar;
- təlimdə uğura nəzarət üsulları [25].

Ənənəvi təlim metodlarını belə qruplaşdırmaq olar:

1) əyani təlim metodları;
2) praktik təlim metodları.

Ənənəvi təlim metodları çoxəsrlik pedaqoji təcrübədə işlənib hazırlanmış və bu günə qədər öz aktuallığını qoruyub saxlamış, təlim prosesinin əsasını təşkil edən üsullardır. Ənənəvi tədris metodlarının məqsədi müəyyən bir fənn üzrə yeni bilik və məlumatların şagirdlərə ötürülməsidir. Şifahi metodlar ən qısa müddətdə böyük həcmdə məlumatı çatdırmağa imkan verən, şagirdlərin qarşısında elmi problem qoymağa və onun həlli yollarını göstərməyə imkan verən üsullardır. Söz vasitəsilə müəllim şagirdlərin təxəyyülündə cisimlər, hadisələr, fəaliyyətlər haqqında canlı şəkillər və təsəvvürlər canlandıra bilər.

Şifahi üsullara aşağıdakılar daxildir:

**Nəqletmə**. Nəqletmə təhsil məlumatlarının nəqli şəkildə şifahi təqdimatıdır. Bu üsul müəllimlər tərəfindən təhsilin bütün mərhələlərində fəal şəkildə istifadə olunur, yalnız nəqletmənin xarakteri, həcmi və müddəti dəyişdirilə bilər. Nəqletmə başa düşülən və əlçatan bir dildə təqdim edilməli, konkret məqsəd, təqdimat məntiqi və emosional boyalar olmalıdır.

**İzah**. İzahat - tədqiq olunan obyektin, hadisələrin, anlayışların və ya hərəkətlərin nümunələri və xüsusiyyətlərinin şifahi şərhi. İzahat öz mahiyyətinə görə müəllimin şagirdlər qarşısında monoloqudur. İzahda tapşırıqlar dəqiq və aydın şəkildə tərtib edilməli, mövzu ardıcıl şəkildə açılmalı, arqumentlər, sübutlar, müqayisələr, analogiyalar və nümunələr olmalıdır.

Təlimin gedişində problemli vəziyyətlər adətən müəllimin mövzu ilə bağlı verdiyi şərhlərlə müşahidə olunur. Hadisələrin səbəb və nəticələrinin üzə çıxarılmasında izah üsulu əsas yer tutur.

Müəllim izahdan istifadə edərkən şagirdlərin fikrini əsas məsələyə istiqamətləndirməlidir. Şagirdlərdə dinləmək və anlamaq həvəsi yaratmalıdır. İzahdan istifadədə əks əlaqənin yaranması böyük əhəmiyyət daşıyır. İzah prosesində müəllim problemli məsələyə aid sual qoyur və bu onlarda sualları cavablandırmaqla bağlı müəyyən reaksiya yaradır. İzahlar əksər hallarda hadisənin yeniliyi, əksəriyyətin marağını çəkən, ancaq qavranılması bir o qədər də asan olmayan hadisələr ilə əlaqəlidir. İzah zamanı müəllim bir sıra əyani vəsaitlərdən, qısa müddətdə baş tutan təcrübədən, yazı taxtasında fiqur, diaqram, cədvəllər vasitəsi ilə fikrini əsaslandırmaq və s. yollardan yararlana bilər.

**Şərh.** Müəllimin çıxışına əsasən, dərs materialının şagirdlər tərəfindən mənimsənilməsi və dərk olunaraq anlaşıqlı şəkildə öyrənilməsi şərh adlanır. Şərh, bir qayda olaraq, üç mərhələdən ibarətdir:şagirdlərin yeni keçiriləcək olan mövzunun öyrənilməsinə hazırlanması, yeni materialın birbaşa dərki və mənimsənilən bilik və məlumatların müəyyən qədər ümumiləşdirilib sistemləşdirilməsi. Bu üsulun effektivliyini şərtləndirən bəzi tələblər mövcuddur:

1) haqqında danışdığımız mövzunun etibarlı mənbələrə aidliyi, qeyd etdiyimiz faktların, gerçək, əsaslı olması;

2) irəli sürülən fikir, düşüncələrin reallığı əks etdirməsi, dinləyəni söylənilən fikrə inandırması;

3) izahın ifadəliliyi və emosional təsiri;

4) nitqin doğruluğu və səlisliyi.

**Problemli şərh**. Müasir dövrdə didaktika elmində bununla bağlı 3 anlayış vardır: problemli təlim, problemli şərh, problemli vəziyyət. Müasir didaktikada problemli təlim anlayışı öyrənənlərin idraki fəallığını, müstəqilliyini nəzərdə tutur. Problemli şərh metodu axtarış metodlarına aiddir, problemli vəziyyət dedikdə, dərsin prosesinin gedişində öyrənənlərin mövcud bilikləri ilə qazandıqları yeni reallıqlara

əsaslanan biliklər arasında yaranan müxtəlifliklər, onları araşdırmağa olan maraq, həvəs, yeni baş verən situasiya nəzərdə tutulur.

Problemli şərhin mahiyyəti müəllimin problemli situasiyanı yaratması, onu özünün də həll etməsi, ancaq problemlərin həlli yollarını şagirdlərin anlama səviyyəsinə uyğun şəkildə açması, problemin həllinə uyğun olaraq düşüncə axınını aşkara çıxarmasından ibarətdir. Bu metodun vasitəsi ilə müəllim elmi dərkin nümunələrini, problemin elmi yolla həll edilməsini, “biliyin embriologiyasını” göstərir, şagirdlər isə bu hərəkətin-problemin həlli istiqamətində fikrin inkişafını izləmiş olurlar.

**Söhbət.** Söhbət müəllim və şagirdlər arasında əvvəlcədən planlaşdırılmış plana uyğun olaraq, aparıcı suallar tərtib edilmiş və şagirdlərin yeni tədris materialını mənimsəməsinə və ya artıq öyrəndiklərini təkrarlamağa yönəlmiş dialoqa əsaslanan bir üsuldur. Söhbət ən qədim tədris üsullarından biridir. Hal-hazırda təlim söhbətlərinin bir neçə növü var. Evristik söhbət onlar arasında ən populyarıdır. Evristik söhbətin mahiyyəti ondan ibarətdir ki, müəllim şagirdlərin bilik, bacarıq, bacarıq və praktik təcrübəsinə arxalanır, onları tədricən yeni tədris məlumatlarını, qaydaları və nəticələri dərk etməyə və mənimsəməyə aparır.

Söhbət onda təkcə müəllimin deyil, həm də şagirdin iştirakını nəzərdə tutur. Əvvəllər öyrənilmiş biliklər kontekstində yeni biliklərin yenilənməsi mərhələsində effektivdir. Söhbət suallara / cavablara əsaslanır və müəyyən bir plana uyğun olaraq aparılır. Söhbət üçün hər bir sual müəllim tərəfindən qabaqcadan düşünülməli, düzgün tərtib edilməli, dolğun və dəqiq olmalı, sualların məntiqi ardıcıllığı şagirdlərin zehni hərəkətlərinin cavab məntiqini oyatmalıdır.

Şagirdləri yeni biliklər haqqında məlumatlandırmaq lazım gəldikdə məlumatlandırıcı söhbətdən müəllim istifadə edir. Giriş və ya giriş söhbəti - yeni tədris materialının öyrənilməsindən əvvəl gəlir. Onun məqsədi şagirdləri yeni şeylər öyrənməyə hazırlamaqdır. Möhkəmləndirici söhbət - müəllim tərəfindən yeni mövzu öyrənildikdən sonra istifadə olunur və əldə edilmiş biliklərin möhkəmləndirilməsinə yönəldilir. Söhbətin müvəffəqiyyəti daha çox müəllimin onun təşkili və aparılması qaydalarına

riayət etməsindən, aparıcı sualların aydınlığı və məzmunundan, həvəsləndirici məzmundan və məntiqin axınından asılıdır.

**Mühazirə.** Mühazirə böyük miqdarda təhsil məlumatının monoloji təqdimatına əsaslanan bir üsuldur. Tədris metodu kimi mühazirə ən çox orta məktəb və universitetlərdə istifadə olunur, çünki şagirdlər artıq müəyyən biliklər əldə etməyə yönəlmiş yetkin fərdlərdir. Mühazirələr adətən bütün dərs vaxtını alır.

Məlumdur ki, şərh metdodu ilə yanaşı, orta məktəblərdə yuxarı siniflərdə mühazirə metoduna da müraciət olunur. Şərhdən dərs prosesinin müəyyən bir qismində istifadə olunur. Lakin mühazirə dərsin çox böyük bir hissəsini təşkil edir, hətta bütün dərs prosesinə hakim olur. Mühazirənin gedişində müəllim bir sıra faktlarla çıxış edir, onların əsas əlamətlərini sadalayır, mülahizələr verir, fərziyyələr, yanaşmalar təklif edir, onların doğruluğunu sübuta yetirir, qarşılaşdırır, müxtəlif baxışlara, yanaşmalara şagirdlərin fikrini yönəldir, şagirdlərə suallar ünvanlamaqla onların dərsə olan marağını artırır. Şagirdlərə təqdim olunan mühazirə ilə bağlı lazımi məqamları dərsin başlanğıcında elan etmək, oxunan mühazirənin əsas yerlərini tələbələrin, şagirdlərin qeydə alması onlara həm də diqqətli olmağı öyrədir. Məntiqli şəkildə yadda saxlama formaları, isbatlara əsaslanan fikirlər, məlumatların qruplaşdırılıb sistemləşdirilməsi, ümumiləşdirmələrə əsaslanması, müqayisələrin aparılması mühazirənin əsasını təşkil edir. Mühazirənin gedişində şagirdlərin onu qavrama səviyyəsini yoxlamaq üçün suallarla onlara müraciət məqsədəuyğundur.

**Seminar (məşğələ).** Ali məktəbdə tələbələrə dərs prosesində tətbiq edilən üsullar arasında ən vacib olan üsullardan biri də seminardır. Seminar metodunu tədqiqat nəticəsində qazanılan yeni biliklər barəsində aparılan araşdırmalar haqqında sinifdə məlumat xarakterli çıxışlar edərkən həyata keçirmək məqsədə müvafiqdir. Seminar metodunda qarşıya qoyulmuş məsələni araşdıran tələbə bununla bağlı həm yazıl, həm də şifahi şəkildə məlumat verə bilər. Onun təqdim etdiyi məlumat barəsində müəyyən müzakirələr aparılır və sonda müəllimin mülahizə və fikirləri ilə nəticəyə gəlinərək yekun vurulur.

Seminar metodu həm də müstəqil şəkildə tətbiq edilə bilər. Bu məqsədlə məzmunu tanış olmayan mövzu şagirdlərə tapşırılır, müəyyən vaxt təyin edilir, ehtiyac duyularsa, müəllim lazımi məsləhətlər verir. Mövzu şagird tərəfindən işləndikdən sonra növbəti dərsdə onun müzakirəsi təşkil olunur və nəticə müəllim tərəfindən yekunlaşdırılır. Seminar metodunun üstünlüyü ondan ibarətdir ki, o, elmi həqiqətləri şagirdlərə müstəqil şəkildə araşdırmaq, aydınlaşdırmaq vərdişinin aşılayır, onların təfəkkür fəaliyyətini inkişaf etdirir.

**Mühaziə-seminar**. Ənənəvi dərslərdə mühazirə-seminar metodundan da yeri gəldikcə istifadə edilir. Bu zaman seminarın mövzusu müəyyən qədər qəlizdirsə onda onun mahiyyətini, əsas ideyasını izah etmək məqsədilə müəllim mühazirənin girişini səsləndirir, daha sonra mövzular üzərində şagirdlər yuxarıda qeyd olunan formaya uyğun olaraq müstəqil şəkildə işə başlayırlar.

**Müsahibə.** Məlumdur ki, müsahibə dialoq yolu ilə biliklərin şagirdlərə (şagirdlərlə) ötürülməsidir. Dərs prosesində müsahibə digər metodlarla müqayisədə daha çox istifadə olunur. İndiki dönəmdə müsahibədən biliyi qavramanın bütün mərhələlərində istifadə edilir, çünki o, hər bir fərdin səmərəli fəaliyyətinə şərait yaradır. Buna görə də təcrübəli və öncül müəllimlər dərsdə bütün şagirdlərin fəallığını təmin etmək üçün müsahibə metoduna müraciət edirlər. Müsahibə metodu vasitəsilə aparılan dərslərdə şagirdlər xeyli aktivləşir, müəllimlə əməkdaşlığa çalışırlar və bunula da qarşılqılıəmakdaşlıq mühiti yaranır.

Müsahibə adətən iki cür aparılır. Birinci halda müəllim keçmiş dərslərdə qazanılmış biliklərə aid bir neçə sual verir, şagirdlər bildiklərini yada salaraq cavab verirlər. İkinci halda isə sualları cavablandıran şagirdlər yalnız məlum olanları xatırlamırlar, öyrəndikləri biliklərlə qazanılan yeni biliklər arasında mövcud olan əlaqələri, oxşarlıq və fərqli xüsusiyyətləri tapır, bir-birindən müxtəlif olan nəticələrə gəlir, özləri üçün qabaqlar rast gəlmədikləri yeni biliklər qazanırlar. Müsahibənin evristik və reproduktiv formalarını dərketmə prosesini formalaşdırmağa yönəltmək məqsədəmüvafiqdir.

Müsahibənin işgüzar şəraitdə keçməsi, cəlbedici olmasından ötrü suallar yığcam və anlaşıqlı ifadə olunmalı, onlar sinfin səviyyəsinə uyğunlaşdırılmalıdır. Müsahibə prosesində müəllim sinifə müraciət etməli, lazım gəldikdə sualın xarakterinə uyğun olaraq sinifdə hər hansı bir şəxsə müraciət etməlidir. Müsahibəni elə təşkil etmək lazımdır ki, onda iştirak edən hər bir kəs qəfil müraciət zamanı cavablandırmağa hazır olsun. Şagirdlərin cavaba düzəliş tələb etdikdə, cavab qənaətbəşx olmadıqda müəllim düzgün cavabı təqdim etməlidir.

Ə.Ağayevin qeydinə görə, "hər bir fəal Azərbaycan müəllimi şagirdlərin sosial şəraitini, ictimai mühitini, milli mentalitetini, adət-ənənələrimizi, fənnin, mövzunun fundamentallığını və ya praktikliyini, fənlərarası əlaqəni, hətta biliklərin inteqrasiyasını, yaş və anlam, həyat təcrübəsi səviyyəsini, pedaqoji metodik, psixoloji-iradi xüsusiyyətləri nəzərə almalı, prosesin təşkilinə yaradıcı yanaşmalıdır" [2]. Ə.Ağayev fikri ilə razılaşaraq qeyd edə bilərik ki, dərs prosesində şagirdin psixoloji durumu, yaş xüsusiyyətləri, bilik səviyyəsi, anlama qabiliyyəti nəzərə alınmalıdır ki, hər bir şagirdə fərdi yanaşıla bilsin.

Müsahibə metodunun əsas üstünlüyü müəllimin müsahibə prosesində şagirdlərlə əks əlaqə yarada bilməsindədir. Müəllim düz cavabları qeyd etməli, səhv cavablara görə uşaqlara iradını ifadə etməlidir. Aktiv, düşündürücü və oyadıcı metod olan müsahibə metodunun başlıca xüsusiyyəti dərs prosesində şagirdi aktiv fəaliyyətə cəlb edəcək sualların və şagirdlərin verdikləri cavabların ciddi sistemi olmasındadır.

Müsahibə metodu ənənəvi dərsin müxtəlif mərhələlərində fərqli təlim məqsədi ilə tətbiq oluna bilər. Məsələn, yeni materialın izahını verərkən, biliyin təkrarı və möhkəmləndirilməsində, yeni dərs materialının tədrisini bitirərkən, şagirdlərdə yaranan suallara ətraflı cavab verərkən bu metod tətbiq edilir. Müsahibə metodu çoxcəhətliliyi və səmərəliliyi ilə diqqəti cəlb edir. Müsahibə zamanı müəllim siniflə, bir qayda olaraq, əks əlaqə imkanına malikdir və tədris olunan material şagirdlərin şəxsi həyat təcrübəsi ilə əlaqələndirilir. Müsahibə prosesində müəllim şagirdlərin nələri yaxşı anladıqlarını, nələri isə yetərincə başa düşmədiklərini rahatlıqla aşkarlaya bilir.

Müəllim müsahibənin gedişində öz-özünə düzəliş edə, materialın izah, şərtini dəyişə, məlumatı xeyli dərinləşdirə, dəqiqləşdirə və s. bilər. Bununla da təlim prosesində müsahibə metodundan istifadə şagirdlərin təfəkkürünü lazımi qaydada inkişaf etdirmək, onların təfəkkür qabiliyyətinin inkişaf etdirmək gücünə malikdir.

Müsahibə metodunun tətbiqi ilə aparılan təlimin gedişində şagirdlərin sərbəst fikir bildirmələri, mülahizələrlə çıxış etmək imkanı olduğundan müəllim dərs prosesində hər bir şagirdi kəşf və onun bacarıqlarını inkişaf etdirmək imkanı qazanır. Dərsin təşkili baxımından mürəkkəb proses olan müsahibənin uğurlu olması üçün dərsin mövzusu və əldə olunacaq təlim nəticələri əvvəlcədən düzgün və dəqiq təyin edilməlidir. Müsahibəni aparan müəllim onu hansı formada aparacağını, prosesi necə qurmalı olduğunu, dərsin hansı mərhələsində daha aparıcı mövqe tutmalı olduğunu təsəvvüründə canlandırmağı bacarmalıdır. Müəllimin şagirdlərə ünvanladığı suallar, onların xarakteri, mahiyyəti və məzmunu əksər hallarda müsahibənin uğurlu olmasının əsas səbəbidir. Müəllimin verdiyi düzgün, qısa, ardıcıl və məqsədyönlü sualları şagirdləri aktivləşdirir. Şagirdlər keçmiş dərslərdə qazandıqları məlumatları yada salır və həmin bilikləri ümumiləşdirərək yeni bilikləri müstəqil mənimsəmələrinə zəmin yaranır. Nəticədə təlim prosesində şagirdlər bilikləri addım-addım mənimsəmə imkanı qazanırlar.

Təlim prosesində müsahibənin fərdi və frontal tətbiq edilmə yolları vardır. Şagirdlər, adətən, frontal müsahibə zamanı fəallaşır, onlar arasında müəyyən dərəcədə rəqabət, yarış mühiti formalaşır. Müsahibə prosesində hazırlıqlı uşaqlar çevik reaksiya verir və başqa sinif yoldaşlarına nümunə kimi çıxış edirlər. Frontal müsahibə aparıldıqdan sonra aktivliyi və düzgün cavabları ilə fərqlənən şagirdlərin müəllim tərəfindən biliyinin qiymətləndirilməsi onlarda dərs prosesinə marağı artırır, həvəs hissi oyadır.

Ənənəvi dərslərdə tətbiq olunan metodlardan biri də **evristik və ya qismən axtarış metodudur.** Müsahibə və evristik və ya qismən axtarış metodu arasında müəyyən əlaqələr vardır. Onlar arasında ortaq cəhətlərinin olması danılmazdır. Çünki bu metodların hər birində də müəllim hər hansı mövzu ilə bağlı olaraq şagirdlərə

suallar ünvanlayır və həmin suallara uyğun olaraq onlardan cavablar tələb edir, onlar düşünməyə sövq edilir və yeni elmi faktların aşkarlanmasına meyilli olurlar. Amma bu metodları bütünlüklə eyniləşdirmək düzgün deyildir, çünki hər biri ayrılıqda metod kimi mahiyyət etibarı ilə fərqli didaktik məsələlərin həllində tətbiq olunurlar.

Məlumdur ki, məlumatvermə metodlarından biri də müsahibə metodudur və şagirdlərin biliklərinə əsaslanır və onların təcrübələrinə söykənilərək informasiyaların ötürülməsini həyata keçirir. Şagirdlərin keçmiş dərslər zamanı mənimsədikləri biliklərə əsaslanaraq yaradılmış müsahibə, sual-cavab qaydasında baş verən prosesdə, bəzi şagirdlərin çətinlik çəkmələrinə baxmayaraq, sinif bütövlükdə çətinliklə üzləşmir. Bunun nəticəsində qarşıda duran didaktik vəzifə həll olunur və şagirdlər yeni biliklər qazanırlar.

Müsahibə metodundan fərqlənən evristik müsahibə metodu müəllimin şagirdlərə ünvanladığı suallarına onların cavab verməsi nəticəsində problemli vəziyyətin üzə çıxarılması ilə bağlıdır. Evristik müsahibənin mahiyyəti budur ki, müəllim şagirdlər üçün problemli vəziyyət yaradır, şagirdlər onu həllə etməyə çalışan zaman əgər, bir sıra çətinliklərlə qarşılaşırlarsa onda çoxsaylı suallar yaranır. Müəllimin qeyd etdiyi, ancaq şagirdlərin özlərinin sərbəst şəkildə icra etdikləri bütün addımlar nəticəsində onlar əvvəl verilən problemi həll edə bilirlər.

Evristik müsahibə metodunu müəyyən qədər axtarış metodu kimi də qəbul etmək olar. Çünki bu metoddan yararlanmaqla mövcud problemi şagirdlərə çatdırmaq, çətinliklə yarandıqda müəllim köməkçi suallarla çıxış edərək şagirdlərə yardım etmək imkanına malikdir. Evristik müsahibə metodunun tətbiqi şagirdlərə hadisə və faktların xüsusiyyətlərini tutuşdurub müqayisələr aparmaq, mühakimələr yürütmək, onlarda yaradıcı qabiliyyətləri formalaşdırmaq və inkişaf etdirməyə münbit zəmin yaradır. Evristik müsahibə metodunun çatışmazlığı ondan ibarətdir ki, problemin həlli üçün çox zamana ehtiyac yaranır.

**Kitab və ya dərsliklər üzərində iş.** Kitab və ya dərsliklə işləmək, şagirdin həm müstəqil, həm də müəllimin rəhbərliyi altında məlumat daşıyıcısı ilə işini əhatə edən ən vacib tədris metodlarından biridir. Dərslik və ya kitabla işləmək şagirdlərin

bir sıra üsullara, məsələn, mücərrədləşdirmə, qeydlər aparma, tezis, iqtibas (sitat) gətirmə və s.

Kitab və dərsliklərlə işin bir çox spesifik cəhətləri vardır. Kitabla iş prosesində qavrama şagirdin özü tərəfindən formalaşdırılmalıdır. Müəllim sadəcə olaraq təlimatçıdır və şagirdlərə dolayı yolla təsir edə bilər. Elə bu səbəbdən də kitabla işləyən zaman şagirdin dərketmə qabiliyyəti yüksək səviyyədə olmalıdır.

Dərsliyi oxuyan zaman qavranılan struktur daha asan formada dərk edilir. Materialın uyğun olaraq bir neçə hissəyə bölünməsi onun dərk edilməsinə yardım edir. Vacib yerlərin nəzərə çarpan şiriftlərlə verilməsi əsas ideyaların müəyyənləşdirməsində xüsusi əhəmiyyətə malikdir. Müəllim kitablarla işləməyi şagirdlərə öyrədən zaman ilk növbədə kitaba müraciət etməyi üsullardan biri kimi seçib tətbiq etməlidir. Bu zaman kitabda məlumatların həcmi kiçik olur, qazanılan məlumatların düşünülmüş şəkildə mənimsənilib-mənimsənilməməsi onu oxuyub bitirdikdən sonra məlum olur.

İstənilən anlayışın izahından dərhal sonra müəllim şagirdlərdən dərslikdəki qaydanı oxumağı xahiş edir və daha sonra səsləndirilmiş qayda ilə bağlı fikirlər bildirilir. Müəllim şagirdlərdən yaranmış suallara dərslikdə cavab tapmağı təklif edir.

Kitablarla işləməyi şagirdlərə aşılamaq üçün müəllim bir neçə tapşırıq növündən istifadə edir: verilən mətnlərə uyğun adların tapılması, mətnin hissələrinin mahiyyətini aydınlaşdırmaq, suallarla əsas fikri ortaya çıxarmaq, verilmiş mətni müəyyən parçalara ayırmaq, həmin hissələri məzmununa uyğun söz və ifadələrlə adlandırmaq, sadədən mürəkkəbə doğru plan hazırlamaq, mətnin əsasında bəzi cədvəllər, sxemlər və s. qurmaq və s.

**Əyani təlim metodları.** Əyani təlim metodları müəllim tərəfindən əyani vəsaitlərdən və texniki vasitələrdən istifadə etməklə tədris məlumatlarının təqdim edilməsinə yönəlmiş üsullardır. Əyani üsullar şifahi və praktiki üsullarla birlikdə istifadə olunur. Əyaniləşdirmələrdən istifadə edərkən müəllim yadda saxlamalıdır ki, onlar öyrənmənin effektivliyini artırmağa kömək etməli və şagirdləri təhsil məlumatlarını öyrənməkdən yayındırmamalı olan tədris üsuludur, yəni görmə qabiliyyətinin olması

orta səviyyədə olmalıdır. Əyani tədris metodları iki əsas qrupa bölünür: illüstrasiya üsulu - illüstrativ əyani vəsaitlərdən (plakatlar, xəritələr, cədvəllər, diaqramlar, çertyojlar və s.) istifadəni nəzərdə tutur.

**Nümayiş üsulu (demonstrasiya)** – təlim prosesində maketlərin, alətlərin, təcrübələrin, texniki vasitələrin və s. nümayiş etdirilməsini nəzərdə tutur. Dərs prosesində bir sıra materialların şagirdlər tərəfindən şüurlu şəkildə dərk edilməsi məqsədi ilə dərs zamanı cürbəcür əşyaların və alətlərin, eyni zamanda video və filmlərin göstərmək ehtiyacı yaranır. Nümayiş (təqdimat) nələrinsə sadəcə olaraq göstərilməsindən ibarət deyil, həm də bu fəaliyyət birbaşa prosesdir. Nümayiş müddətində şagirdlərdə fəal idrak prosesi, əyanilik əsasında dərketmə prosesi baş verir. Nümayişin effektivliyini təmin etmək üçün aşağıdakı şərtlərə əməl olunmalıdır:

- nümayiş etdirilən obyekt hamı tərəfindən aydın görünməli və başa düşülməlidir, həmin anda söhbət ondan gedirsə göstərilməlidir;
- şəkillərdə, cədvəllərdə qeyd olunan yazılar elə ölçüdə olmalıdır ki hamı görə bilsin;
- predmet söz və ifadələrlə təsvir edilməli, şagird qazanılması zəruri olan məlumatlara köklənməli və əşyanın bu baxımdan əsas cəhətlərinə fikir verməlidir;
- şagirdlərin iştirakı ilə nümayişin nəticəsi müəyyənləşdirilməlidir.

**İllüstrasiya**. İllüstrasiya ilə nümayiş (təqdimat) metodu yaxındır, həmçinin onlardan biri digərinə əsaslanan metodlardır. Qeyd etmək lazımdır ki, sadəcə predmetlərin özlərinin göstərilməsi illüstrasiya deyil. Bu metodu kiçik təsvirlər vasitəsilə biliyin dərk olunması kimi adlandırmaq olar. Bildiyimiz kimi, əksər məktəblərdə bu tipli vasitələr daimi şəkildə sinif otağında divarlarda, löhvənin kənar hissələrində asılır. Artıq müəyyən bir müddət ərzində şagirdlər həmin materialları dəfələrlə görür və nəticədə ona qarşı maraq kifayət qədər azalır . Bu materialları dərs başlamadan əvvəl də nümayiş etdirmək uğurlu nəticə vermir. Yalnız həmin hadisə barəsində danışarkən irəli sürülən material xüsusi maraqla qarşılanır və səmərə verir.

**Praktik tədris metodları.** Praktiki tədris metodları şagirdlər tərəfindən bacarıq, vərdiş və praktik təcrübənin formalaşmasına yönəlmiş praktiki fəaliyyətlərin

həyata keçirilməsinə əsaslanır. Praktik tədris metodları qoyulmuş problemin şagirdlər tərəfindən dərk olunması, onların təqdim olunan materiallara münasibəti həm də təfəkkür prosesini stimullaşdırır. Praktik təlim metodlarının tətbiqində təlimin interaktiv xarakteri nisbətən geniş şəkildə özünü göstərir. Bu da, öz növbəsində, bütün şagirdlərin təlim prosesində öz bacarıqlarını həyata keçirməsi, özlərinə qarşı inamlarının əsaslı şəkildə artması, özlərini müstəqil şəxsiyyət olaraq anlamaları, qarşıya çıxan problemlərin həllində ən başlıca olan qrup daxilində fərdlərin bir-birini anlaması prinsipini öyrənməsi nəticəsində hər bir şagirdin sərbəst inkişafına səbəb olur.

Praktiki üsullara aşağıdakılar daxildir: çalışmalar - praktiki və ya zehni hərəkətin möhkəmlənməsi və təkmilləşdirilməsi üçün onun çoxsaylı təkrarlarıdır. Çalışmaların şifahi, yazılı, qrafik və tədris və əmək növləri fərqləndirilir. Praktik üsulla aparılan istənilən çalışma şagirdlər tərəfindən zehni və praktiki işlərin yerinə yetirilməsinə yönəlmişdir.

Laboratoriya işləri qanunauyğunluqları və ya hadisələri müəyyən etmək üçün xüsusi cihazlardan, alətlərdən və digər texniki vasitələrdən istifadə etməklə şagirdlər tərəfindən müstəqil təcrübələrin aparılmasıdır. Laboratoriya işləri müəllimin göstərişi əsasında və onun əvvəllər tərtib etdiyi alqoritmə uyğun olaraq aparılır. Laboratoriya işi kəşfiyyat xarakterli və ya illüstrasiya xarakterli ola bilər. Böyük bölmələr öyrənildikdən sonra praktiki iş aparılır və mövzular ümumiləşdirici xarakter daşıyır. Onlar yalnız sinifdə deyil, həm də təhsil müəssisəsindən kənarda həyata keçirilə bilər (yerdə ölçmələr, məktəb yerində iş). Praktiki tədris metodlarının xüsusi bir növü tədris maşınları, simulyatorlar və repetitorlarla dərslərdir.

Adətən dərs prosesində müəllimin təlimatına əsasən şagirdlərin təcrübəni həyata keçirmələri, birbaşa müşahidə prosesində olmaları və öz səyləri nəticəsində bilik qazanmaları laboratoriya işi hesab edilir. Laboratoriya işlərinin uğurlu təşkili üçün münasib avadanlığın, cihazların, texniki vasitələrin, zəruri əşyaların olması vacib şərtdir.

Müəllim bir sıra şərtlərə əməl etməlidir ki, laboratoriya işi səmərəli olsun:

1) şagirdlərə həvalə olunacaq təcrübənin mövzusu, gedişi, nəticəsi müəllim tərəfindən qabaqcadan dəqiqləşdirilir;

2) laboratoriya işinin əhəmiyyəti, məqsədi, mahiyyəti, mərhələləri haqqında müəllim şagirdlərə ətraflı və dolğun məlumat verir;

3) müəllim təcrübə prosesini nəzarət altında saxlayır, çətinliklə üzləşənlərə istiqamət verir, təcrübə aparmaq vərdişinin uşaqlarda formalaşmasına yardım edir;

4) müəllim təcrübədən alınmış nəticələrin ümumiləşdirilməsinə və şərhinə rəhbərlik edir.

Laboratoriya işi biliklərin şüurlu mənimsənməsinə və biliklə bağlı bacarıqların formalaşmasına münbit zəmin yaradır. Müəllim şagirdin axtarış yolunu müəyyən edir, onu uğursuz variantlardan mühafizə edir. Laboratoriya işlərində şagirdlərin müstəqilliyi və yaradıcılığı daha yüksəkdir. Bu cür işlər şagirdlərdə müşahidəçiliyi, qavrama qabiliyyətini inkişaf etdirir. Laboratoriya işləri həm də şagirdlərdə biliklərin praktikaya tətbiqi vərdişlərini aşılayır.

Əlavə etmək istərdik ki, laboratoriya işlərində avadanlıq imkan verdikdə fərdi surətdə təşkil etmək mümkündür. Laboratoriya işinin əsas üstünlüyü ondan ibarətdir ki, onun gedişində şagirdlərin qazandıqları bilikləri əyaniləşir və istifadə oluna bilir.

# II FƏSİL. AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODLARI

## 2.1. Müasir təlim metodlarının mahiyyəti və təsnifatı

Bu gün dünyada bütün ölkələrin inkişaf prosesini və iqtisadi cəhətdən artımını sürətləndirən başlıca faktorlardan biri təhsil sistemidir. Müasir dövrdə təhsil islahatlarının əsasını təlim və təhsil prosesinə yeni yanaşma təşkil edir. Hazırda yeni islahatlarının mərkəzində dayanan əsas ideya qloballaşan dünyada müasir tələblərə cavab verən, yüksək analizetmə, situasiyaya yaradıcı yanaşma, tənqidi düşünmə qabiliyyətinə sahib olan, həmçinin bəşəri və milli dəyərləri özündə əks etdirən şəxsiyyəti hazırlamaqdır.

Hal-hazırda XXI əsrdə müasir təhsilin qarşısında duran əsas vəzifə təhsilin bütün mərhələlərində şəxsiyyətin tələblərini, ehtiyac və maraqlarını ödəyə bilən təhsil sisteminin yaradılmasıdır. Bu məqsədlə, Azərbaycanda 2006-cı ildə özündə inkişaf etmiş qabaqcıl təcrübələri ehtiva edən bir sənəd –"Azərbaycan Respublikasında ümumi təhsil Konsepsiyası (Milli Kurikulum)" qəbul edilmişdir.

“Kurikulum "Təhsil proqramı"dır. Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Yəni kurikulum şagirdə nə öyrədiləcəyi və şagirdin nə öyrənəcəyi, təlim-tədris prosesinin necə qurulacağı, həmçinin əldə olunmuş nailiyyətlərin necə qiymətləndiriləcəyi ilə bağlı məsələləri özündə cəmləşdirən sənəddir” [14, s.7].

Kurikulum islahatlarında əsas prinsiplər aşağıdakılardır:

- Təhsilin məzmununun və təlim strategiyalarının zamanın və cəmiyyətin tələblərinə uyğunluğu. Başqa sözlə, tələbyönümlülük;

- Təlimin nəticələrinin, standartlarının əvvəlcədən müəyyənləşdirilməsi və təlimin nailiyyətlərinin onlara istiqamətləndirilməsi. Başqa sözlə, nəticəyönümlülük;

- Şagirdlərin inkişafı, tələbatları, maraq və meyillərinin daim diqqət mərkəzində saxlanılması. Başqa sözlə, şagirdyönümlülük;

- Bütün şagirdlərə öz idrak potensialından istifadə etmək, şəxsi qabiliyyətlərini inkişaf etdirmək. Başqa sözlə, inkişafetdiricilik [28].

Məlumdur ki, ənənəvi tədris metodları şagirdlərin orta hazırlıq səviyyəsinə istiqamətlidir və yeni şəraitdə kifayət qədər yüksək nəticələr vermir. Əlbəttə, müasir müəllim dərsin anlaşıqlı, maraqlı və dərkedilən olmasına çalışmalıdır. Bəs dərs prosesinin parlaq, emosional olmasına, hər bir şagirdi müstəqil axtarış prosesinə cəlb etməkdə, şagirdlərdə keçilən fənnə maraq oyatmaqda müəllimə nələr kömək edə bilər?

Şagirdlərə müstəqil və komanda tərkibində işləməyi, öz fikirlərini ifadə etməyi və başqalarının fikrini nəzərə almağı, müstəqil düşünməyi və sual verməyi necə öyrətmək olar? Bu suallara cavab vermək və dil dərslərində yüksək nəticələr əldə etmək üçün müasir təlim metodları, üsulları, təhsil texnologiyalarından istifadə müvəffəqiyyətin ilkin şərtidir. Yalnız yeni təlim metodlarından yerli-yerində istifadə şagirdlərlərdə müasir cəmiyyətin tələblərinə cavab verən kompetensiyaları formalaşdırmağa imkan yaradır.

Azərbaycan dilinin tədrisi prosesində tədqiqatçıların və metodistlərin bütün tələblərini ödəyən mükəmməl bir metod, təəssüf ki, hələ də mövcud deyildir.

Adətən elmi ədəbiyyatda "metodika" anlayışı iki mənada izah olunur:

1) müəyyən bir predmetin öyrənilməsinə istiqamətlənmiş metodik sistem;
2) təlim və ya tədris prosesində qarşıya qoyulmuş məqsədə çatmaq üçün üsul və yol.

Orta məktəbdə Azərbaycan dilinin tədrisi prosesində çoxsaylı pedaqoji metodlar, texnologiyalar,yollar, həmçinin üsullardan istifadə olunur. Bəzən ənənəvi və innovativ metodikalar fərqləndirilir. Metodikanın passiv, aktiv və interaktiv halda bölünməsini təklif etmək mümkündür. Azərbaycan dilinin tədrisi prosesində tətbiq olunan istənilən metodun müəyyən səbəblərlə şərtlənmiş müsbət, bəzən isə mənfi tərəfləri vardır. Çünki bəzi metodlar müəyyən şərtlər altında və məlum şagirdlər üçün

uğurla istifadə oluna bilər, amma onlar hər bir kəs üçün eyni dərəcədə faydalı ola bilməz.

F.Y.Veysəllinin fikrincə, "təlimin metodikası metodik üsullar sistemindən formalaşmış və biliklərin verilməsi və mənimsənilməsinə xidmət edən tədris, mövzunun xüsusiyyətlərini, fənnin özünəməxsusluğunu, öyrənilən mövzunun xarakterini və təlim mərhələsini nəzərə alaraq bacarıq və vərdişlərin inkişaf etdirilməsi üsulunu" nəzərdə tutur. Metodik priyom "tamamlanmış bir hərəkət və ya müəllim və şagirdin bir sıra hərəkətləri ilə ifadə olunan və müəyyən bir linqvistik vəzifənin həlli ilə əlaqəli ifadə edilən tədris metodunun elementi" kimi müəyyənləşir" [22, s.215].

Bu ideyadan çıxış edərək müasir dövrdə Azərbaycan dilinin tədrisində aparıcı yanaşmaları təqdim etməyə, ana dilinin tədrisinin məqsədinə daxil olan səriştələrin formalaşmasında onların həyata keçirilməsi yollarını işıqlandırmağa cəhd edilmişdir. Təlimdə yanaşma, linqvodidaktik kateqoriya kimi, öyrədilməsi nəzərdə tutulan predmetin mahiyyətinə uyğun strategiyanı reallaşdıran, dilin tədrisi strategiyası və təlim metodunun seçimi kimi metodologiyanın əsas kateqoriyası kimi müəyyən edilir.

Beləliklə, təlimdə yanaşma ümumi nəzəri-praktik mövqedir və bu mövqe təlimin metod və üsullarını, prinsip və strategiyalarını müəyyənləşdirir.

Orta məktəbdə Azərbaycan dilinin tədrisi prosesində bu gün artıq metodların seçilməsində şagirdlərdə şəxsiyyətyönümlü üsulların formalaşmasına yönəlmiş metodların seçilməsinə üstünlük vermək lazımdır. Müasir tədris metodlarını (texnikaları, tədris formalarını) seçərkən aşağıdakı meyarlar nəzərə alınmalı, istifadə olunan metodlar onlara uyğun olaraq:

- şagirdin özünü rahat və sərbəst hiss etdiyi atmosfer yaratmalı, şagirdlərin maraqlarını stimullaşdırmalı, onun dildən praktiki istifadə etmək istəyini, habelə öyrənmək ehtiyacını inkişaf etdirməli, bununla da şagirdlərin fənni mənimsəməsində uğur qazanmasına imkan yaratmalıdır;

- bütövlükdə şagirdin şəxsiyyətinə təsir etmək, onun duyğularını, hisslərini və hisslərini təhsil prosesinə cəlb etməli, onun real ehtiyacları ilə əlaqələndirməli, danışığını (nitqini), idrak, yaradıcılıq qabiliyyətlərini stimullaşdırmalıdır;

- şagirdləri aktivləşdirməli, onu təhsil prosesində əsas xarakterə çevirməli, bu prosesin digər iştirakçıları ilə fəal əlaqə qurmalıdır;

- müəllimin mərkəzi fiqur olmadığı situasiyanı yaratmalı, şagirdlər dilin öyrənilməsinin müəllimin müəyyən etdiyi metod və dərs vəsaitlərindən daha çox onun şəxsiyyəti və maraqları ilə əlaqəli olduğunu dərk etməlidir;

- şagirdə fiziki, intellektual və emosional imkanları səviyyəsində müstəqil şəkildə dil üzərində işləməyi öyrətməlidir, deməli, tədris prosesinin diferensiallaşdırılmasını və fərdiləşdirilməsini təmin etməlidir;

- sinifdə müxtəlif iş formalarını təmin edilməli fərdi, qrup, kollektiv, şagirdlərin fəaliyyətini, müstəqilliyini, yaradıcılığını və s.

Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, İ.Həsənovun "Kurikulum Metodika Pedaqogika" kitabında müasir kurikulumun prinsipləri aşağıdakı şəkildə verilir:

*"Şagirdyönümlülük* – Təhsil sahəsində fəaliyyətlərin təhsilalanların mənafeyinə, maraq və tələbatlarının ödənilməsinə, istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafina xidmət etməsidir;

*Şəxsiyyətyönümlülük* – Təhsil alanın idrakı, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır;

*Tələbyönümlülük* – Fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınmasıdır;

*Nəticəyönümlülük* – Nəzərdə tutulan təlim nailiyyətlərinin nəticələr formasında əvvəlcədən müəyyən edilməsidir;

*İnteqrativlik* – Təhsilin məzmun komponentlərinin bir-biri və həyatla sistemli şəkildə əlaqələndirilməsidir;

*Qiymətləndirmə standartları* – Təhsilalanlann nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir” [14, s.10].

Təsnifatdan da göründüyü kimi, təhsilin şagirdyönümlü olması şagirdlərin bacarıq və vərdişlərinin, qabiliyyətlərinin inkişaf etdirilməsinə yönəlib. Şəxsiyyətyönümlü olması öyrənənin kommunikasiya və idraki qabiliyyətlərinə əsaslanan bacarıqların, bəşəri və milli dəyərlərin formalaşması deməkdir. Nəticəyönümlü olması, hansı nəticəni əldə edəcəyimizi qabaqcadan müəyyənləşdirir. Tələbyönümlülük hər bir şəxsin günbəgün dəyişməkdə olan tələblərinin və ehtiyaclarının nəzərə alınmasıdır. İnteqrativlik adından da göründüyü kimi, təhsil sistemində əldə olunan biliklərin əlaqələndirilməsini, sitemləşdirilməsini nəzərdə tutur.

İstər ənənəvi, istər yeni metodların tətbiqi ilə keçirilən dərslərdə dil yalnız öyrənənlər tərəfindən ünsiyyət tərəfdaşları ilə sosial qarşılıqlı əlaqə vasitəsi və alət kimi qəbul edilməlidir.

Müasir təhsil sisteminin əsas məqsədi şagirdin mümkün qədər çox şey bilməsi deyil, onun istənilən həyati situasiyalarda hərəkət edə bilməsi və problemləri həll edə bilməsidir. Şagirdin tapşırığı doğru həll etməyə imkan verən formalaşmış səriştələrindən biri dil sahəsində əldə etdiyi bilikləri təcrübədə tətbiq etməsi ilə əlaqədardır.

Müasir Azərbaycan dili dərslərinin ən başlıca xüsusiyyətlərindən biri də dərsin elmilik mahiyyəti qorunub saxlanılmaqla şagirdlərdə sərbəst araşdırmacılıq, analiz etmə və qazanılan biliklərə yaradıcı yanaşma vərdişlərini formalaşdırmaqdır. Əlbəttə, bu halda öyrədənin peşəkarlığı, bilik səviyyəsi yüksək olmalı, zəngin yaradıcılıq qabiliyyətinə sahib olmalıdır. Belə olduğu halda, müəllim dərs prosesində öz yanaşmaları, elmi mülahizələri ilə bağlı olaraq kifayət qədər dəqiq, obyektiv olacaq və şagirdlərin öz potensialını göstərməsi, mümkün araşdırmaları həyata keçirməsi, tədqiq etməsi üçün münasib şərait yaradacaq. H.Balıyevin də qeyd etdiyi kimi, “yəni şagird bütün təlim prosesində “kəşf edən” statusundakı mövqelərini gücləndirməklə məşğul olsun” [5, s.44].

Ümumiyyətlə metodların tətbiqi konkret olaraq aşağıdakı mərhələlərə nail olmağı nəzərdə tutur:

1) şagirdin verilmiş materialı aydın dərk etməsi;

2) uşaqların təfəkkürünün inkişafı;

3) abstraktlaşdırma, ümumiləşdirmə, müqayisə, təsnifatlaşdırma əməliyyatlarının inkişafı və s.;

4) rabitəli nitq vərdişlərinin inkişaf etdirilməsi.

Bildiyimiz kimi, Azərbaycan dilinin tədrisində eyni zamanda bir sıra məzmun xətləri var. Qeyd etməliyik ki, dil qaydaları ən başlıca məzmun xətlərindən biri hesab oluna bilər. Dil qaydaları xüsusi bacarıq və ya vərdiş olmaya bilər, lakin əsas etibarilə bacarıqların düzgün tətbiq olunmasında zəruri bir faktdır. Azərbaycan dili təlimində standartlar elmi-nəzəri biliklər verən qaydalara üstünlük vermək əvəzinə, dil normalarını uğurlu həyata keçirməyə imkan verən qaydalara üstünlük vermək daha məqsədəuyğun hesab edilə bilər.

Azərbaycan dilinin tədrisi proesində əsas məqsəd yazılı və şifahi formalarda ünsiyyətə girmək bacarığının  aşılanmaqdan ibarətdir. Azərbaycan dilinin tədrisi elə təşkil edilməlidir ki, o, şagirdlərdə yeni biliklərin mənimsənməsi istiqamətində müstəqil yaradıcı qabiliyyəti formalaşdırmalıdır.

Son illər təhsil sistemində yeni paradiqmə keçidin məntiqi nəticəsi kimi  bütövlükdə kompetent yanaşma geniş yer almışdır. Bu yanaşma şagirdlərlərin şəxsi keyfiyyətlərinin inkişafına yönəlmişdır və təhsilin praktik istiqamətliliyini xeyli gücləndirmişdir. Buraya isə dəyər sistemi, tədrisin nəticələri - biliklər, vərdişlər və bacarıqlar aid edilir. Bu tipli yanaşma yeni metodlara, əsasən, şəxsiyyətyönümlü yanaşma ilə uzlaşır.

Şagirdlərə danışıq fəaliyyəti növlərinin tədrisində fəaliyyət metodunun mahiyyəti aşağıdakılardır:

- nitqin inkişaf etdirilməsində məqsəd dinləmə, oxuma, danışma və yazı kimi növlərdə reallaşan danışıq fəaliyyətinin öyrədilməsidir;

- nitq fəaliyyətinin növləri üzrə təlimdə məqsədyönlülük və motivasiyalı şərtilik, axının səviyyəli xarakteri, hər səviyyədə nitq-təfəkkür mexanizmlərinin işinin xüsusiyyətləri nəzərə alınmalıdır.

Fəaliyyət yanaşmasının mahiyyəti ondan ibarətdir ki, şagirdlərin məzmunu nəzəri biliklərdən ibarət linqvistik səriştəsinin formalaşması təhsil fəaliyyətində həyata keçirilir. Qazanılmış nəzəri biliklər şagirdlərdə nəzəri şüur və təfəkkürün əsaslarını, habelə bütün fəaliyyət növlərinin yerinə yetirilməsinin yaradıcı-şəxsi səviyyəsini inkişaf etdirir. Təlim fəaliyyəti struktur baxımından həvəsləndirici-motivasiya, analitik-sintetik və icraedici mərhələlərin məcmusunu təmsil edir. Hər bir mərhələ ehtiyaclar, motivlər və vəzifələrin qoyulmasından sonra yaranan hərəkət və əməliyyatlardan ibarətdir. Buna görə də rabitəli nitq vərdişlərinin formalaşması təhsil fəaliyyətinin motivlərin formalaşması, məktəblilərin qarşılarına məqsəd və vəzifələri qoymağı öyrətməklə müşayiət olunmalı, tədris-idrak fəaliyyətində təlim məsələlərinin həlli prosesi və nəticəsinə refleksiv nəzarəti həyata keçirməli, habelə zəruri hallarda hərəkətlərə düzəliş və onların qiymətləndirilməsi yerinə yetirilməlidir.

Biliyin, vərdişlərin, bacarıqların və idrak üsullarının şagird tərəfindən əldə edilməsi həm təhsilin məzmunu, həm də şəxsi təhsil fəaliyyətində refleksiya ilə müşayiət olunur. Bu isə özünü dilin (Azərbaycan dilinin) öyrənilməsində müasir dilçiliyin digər bir mühüm paradiqmində - refleksiv yanaşmada büruzə verir. Bu ondan ibarətdir ki, dilin məqsədyönlü mərhələli öyrənilməsi sistemli şəkildə şagirdlərdə refleksiyanı, xüsusən də təhsilin məzmununun və təhsil-idrak fəaliyyətinin refleksiyasını inkişaf etdirir. Təhsilin məzmununun refleksiyası aşağıdakılar özündə ehtiva edir:

1) şagirdin Azərbaycan dili kursuna baxışı və onun istiqamətləri, aspektləri və bölmələri arasında qarşılıqlı əlaqələri qavraması:

- dil vahidlərinin çoxcəhətliliyi və çoxmənalılığı (məsələn, sözlər fonem və morfemlərin məcmusu, leksik, vahidlər, nitq hissələri və nəhayət, cümlə üzvü kimi);

- dil hadisələrinin kommunikativ, qrammatik və estetik fenomen kimi çoxfunksiyalılığı;

- dil vahidləri arasında müxtəlif (paradiqmatik, sintaqmatik və s.) əlaqələr.

2) şagird bütövlükdə məxsusi tədris fəaliyyətində və konkret təhsil əməliyyatlarında anlayış və biliklərin rolunu anlamalı və dərk etməlidir. Xüsusi təhsil fəaliyyətinin refleksiyası şagirdin özünün təhsil-idrak fəaliyyətini dərk etməsini, özünütəhlili, özünüqiymətləndirməni və lazım gəldikdə isə özünədüzəlişi tələb edir. Reflektiv təlim yeni metodlardan istifadəni və artıq mövcud olan ənənəvi üsul, metodlar və texnologiyaların islah olunmasını tələb edir.

Metodlar adətən iki qrupa bölünür: ümumi və xüsusi. Bildiyimiz kimi birincilər istənilən bir dilin ümumi məsələlərini, problemlərini araşdırır, öyrənir. Ümumi metodlara aşağıdakıları misal göstərmək olar:

- materialın seçilmə prinsipləri;
- əyani və texniki vasitələrdən istifadə zamanı yaranan problemlər;
- tədris proseslərinin təşkil olunması və prosesin sürətləndirilməsi yolları;
- məktəbdən kənarda işin qurulması və icra edilməsi məsələsi və s.

İkinci qeyd etdiyimiz metodlar isə konkret bir dilin tədrisində tətbiq olunur. Məsələn, Azərbaycan dilinin fonetikası, söz sırası, inversiya və s. misal göstərmək olar.

Metodika elminin indiki mərhələsində Azərbaycan dilinin təlimi metodları müxtəlif şəkildə təsnif edilir:

1) biliklərin əldə edilmə mənbəyinə görə;

2) didaktik vəzifələrinə görə (biliklərin qazanılması metodu və bacarıq və vərdişlərin formalaşması metodu);

3) şagirdlərin idrak fəaliyyətinin səviyyəsinə görə (izah-illüstrativ, axtarış, evristik və s.);

4) nəzəri təlim metodlar, nəzəri-praktik metodlar, praktik metodlar.

Biliklərin mənbəyinə görə alınması təsnifatı hamı tərəfindən qəbul edilən təsnifatdır. Azərbaycan dilinin tədrisində biliklərin əldəetmə mənbəyinə görə tədrisinin aşağıdakı üsulları fərqləndirilir: müəllimin sözü, söhbəti, dərsliklə iş, dil materialının, texniki və əyani vəsaitlərin təhlili, çalışmalar.

Metod konkret üsullar vasitəsi ilə həyata keçirilir. Üsullar (priyomlar) metodun təfərrüatları, onun komponentləri, təfəkkür fəaliyyətində addımlardır. Metodla müqayisədə üsulların fərqləndirici xüsusiyyəti onun hər hansı bir metoda daxil olması və onun hissəsi olmasındadır.

Metodlar bir-biri ilə qarşılıqlı təsir münasibətindədirlər, lakin onların heç biri digərinə tərkib hissəsi kimi daxil ola bilməz; bir-biri ilə qarşılıqlı əlaqədə olan üsullar eyni zamanda istənilən metodun tərkib hissəsi kimi daxil ola bilər. Əsas metodoloji üsullar bunlardır: tutuşdurma və müqayisə, ümumiləşdirmə, üzvləmə, bəzi forma və ya strukturların digərləri ilə əvəz edilməsi, seçmə, əvəzetmə, alqoritmləşdirmə, təhlil və sintez və s.

Müəllim şagirdlərin təfəkkür fəaliyyətini tənzimləməyə, rasional təşkil etməyə çalışır. Daha sonra şifahi tövsiyələr və göstərişlər, xüsusi tərtib edilmiş diaqram və cədvəllər və s. meydana çıxır.

Azərbaycan dilinin tədrisinin effektiv üsullarından biri metodik şəkildə düşünülmüş, xarakteri, növü, məqsədləri, formaları müxtəlif olan tapşırıqlar sistemidir. Azərbaycan dili dərslərində bu çalışmalar şagirdlərin nəzəri qrammatika kursu haqqında biliklərini möhkəmləndirməyə və ya nitq bacarıqlarını, ifadəli oxu bacarıqlarını mənimsəməyə yönəlmiş müəyyən növ çalışmaların yerinə yetirilməsi kimi başa düşülür. Azərbaycan dilinin sinifdə və dərsdənkənar tədrisi prosesində çalışmaların təşkilinin əsas məqsədlərindən biri şagirdlərin cari proqram materialı haqqında biliklərinin mənimsənilməsi və möhkəmləndirilməsi və müstəqil iş bacarıqlarının inkişaf etdirməkdən ibarətdir.

Azərbaycan dili fənnində çalışmalar yerinə yetirərkən şagirdlər dil üzrə fəal müşahidələr aparır, linqvistik faktları təhlil edir, nəticə və ümumiləşdirmələr aparırlar.

Əlbəttə, çalışmalar üçün xüsusi seçilmiş material götürülür. Onlar dərsin məqsədi üçün zəruri bütün lazımi məlumatların təmsil olunduğu xüsusi seçilmiş mətnlər üzərində aparılır. Çalışmanın məzmunu müəllimin istəyi ilə dəyişdirilə bilər. Çalışmaları yerinə yetirən şagirdlər dil materialı ilə işləmək üzrə təcrübələr qazanır-

lar. Çalışmalar əsas didaktik və metodoloji tələblər gözlənilməklə sistemli şəkildə daima aparılmalıdır.

Çalışmalar öz məzmununa görə Azərbaycan dili üzrə fənn proqramının hər hansı bölməsinə aid ola bilər. Bundan başqa, formalarına görə tapşırıqlar şifahi və yazılı ola bilər, çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb ola bilər, şagirdlərin müstəqilliyi baxımından isə onlar daha effektiv və daha az effektiv ola bilər.

B.Əhmədov şagirdlərin dil və təfəkkürünün, dil və nitqinin qarşılıqlı əlaqədə inkişaf etdirilməsinin nəzəri və praktik məsələlərini izahında təlim prosesində metod və üsulardan düzgün istifadəni vacib sayırdı. Müəllif bu üsullar arasında isə "şagirdin nitqini zənginləşdirmək üçün mütaliəyə geniş yer vermək, uşaqların bədii əsərlərdən atalar sözləri seçmək, məsəllər, tapmacalar və s. seçməsini, bunları əzbərləməsini təşkil etmək priyomu" na [8, s. 91] üstünlük verir. B.Əhmədov bunu, "bir tərəfdən, şagirdin yeni dil vahidlərinə yiyələnməsi və nitqində istifadə etməsi, digər tərəfdən isə, eyni fikri müxtəlif formada verməsi baxımından faydalı hesab edirdi" [8, s. 91].

Onlar müstəqillik dərəcəsinə görə də fərqlənə bilər, evdə və sinifdə yerinə yetirilə bilər. Məsələn, orfoqrafiya çalışmaları nəyisə yazmaq, əlavə etmək, əvəz etmək, götürmək, silmək, altını çızmaq, daxil etmək, izah etmək, nəyisə yazmaq sözləri ilə başlaya bilər. Müxtəlif tapşırıqlara əlavə olaraq, çalışmalarda mətnin həcmi, mətnin janrını dəyişmək mümkündür.

Şagirdlərdə bilik və bacarıqların inkişaf etdirilməsi üçün dərs prosesində müəllim tərəfindən tapşırılan tapşırıqların böyük köməyi və əhəmiyyətli dərəcədə təsiri vardır. Qeyd etdiyimiz kimi, tapşırıqlar Azərbaycan dilinin tədrisinin vacib göstəricisidir, eyni zamanda dərsin keyfiyyətini yüksəldir, təlimi əsaslı şəkildə sürətləndirir.

Təklif olunan çalışmalarda qrammatik səriştənin tətbiq imkanları nəzərə alınmalıdır və bununla da şagirdlərdə qrammatik səriştənin avtomatlaşdırılmasına nail olmaq mümkündür. Çünki Azərbaycan dilinin tədrisində dilöyrənməni bir sıra tapşırıqlar birbaşa sürətləndirir və daha irəli səviyyəyə aparır. Nəzərdə tutulan tapşırıqlar başlıca olaraq dilöyrənənlərin dildən gündəlik ünsiyyətdə istifadəsinə

istiqamətlənmişdir. Qeyd olunanlardan əlavə olaraq, tapşırıqlar həmçinin, şagirdlərin qarşılıqlı fəaliyyətinin, əməkdaşlıq prinsipləri əsasında qurulan münasibət və tərəfdaşlığın, dialoji ünsiyyətin inkişaf etdirilməsi üçün mühüm şərtdir.

Azərbaycan dili dərsliklərində təklif olunan əksər tapşırıqlar şagirdlərin qazandıqları nəzəri biliklərinin mohkəmlənməsinə, orfoqrafik vərdişlərin formalaşmasına, daha doğrusu yazı mədəniyyətinin formalaşmasına xidmət edir. A.Paşayevin qeyd etdiyi kimi, müasir dərsdə "hər bir sinifdə elə tələbkarlıq mühiti yaratmaq lazımdir ki, şagirdlər əllərinə qələm alıb hər hansı tapşırığı yazanda fikrini cəmləsin, məsuliyyət hiss etsin. Şagirdlərin şuurunda aşılanmalıdır ki, hər hansı yazı onun sahibinin təhsildə qazandıqlarını əks etdirən güzgüdür" [19, s. 15].

Azərbaycan dili dərslərində mətn parçalarından istifadə məsələsi də olduqca vacibdir. Görkəmli metodist Ə.Əfəndizadənin tədqiqatlarında da ana dil dərslərində mətnlərdən istifadənin əhəmiyyəti xüsusi qeyd edilir. Müəllif "Azərbaycan dili dərslərində həmişə bədii sözün, obrazlı ifadələrin ətri gəlməlidir" [7, s. 17] fikrini irəli sürür. Onun qənaətinə görə, dil dərslərində şagirdlərin əxlaqi tərbiyəsində folklor materiallarından, bədii söz ustalarının əsərlərindən gətirilən nümunələr qiymətli və güclü təsir vasitələridir. Bununla bağlı Ə.Əfəndizadə yazırdı: "Azərbaycan dili dərslərində ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərindən parçalar, xüsusən poetik bəndlər, beytlər, misralar səslənərkən, yaxud onlardan ibarət yazılı çalışmalar yerinə yetirilərkən şagirdlər bir daha inanırlar ki, Azərbaycan dili öz lakonikliyi, səslənməsi, ahəngdarlığı və zərifliyi ilə, doğrudan da, qüdrətli və ecazkar bir dildir" [7, s.17]. Ə.Əfəndizadə doğru olaraq qeyd edir ki, Azərbaycan dili dərslərində poetik ifadələrdən istifadə edilməsi, yazıçıların əsərlərindən gətirilən sitatların dərs prosesində səsləndirilməsi şagirdlərin dil dərslərinə olan marağını artırır.

Təbii ki, şagirdlərin söz ehtiyatının zənginləşməsində, nitqlərinin leksik və semantik baxımdan dolğunluğunda bədii mənbələr əvəzsiz rola malikdir. Azərbaycan dilinin tədrisində bədii mənbələrdən istifadə şagirdlərdə həm də bədii zövqü formalaşdıran əsas vasitədir.

Azərbaycan dilinin tədrisi prosesində müəllim dərs prosesini elə qurmalıdır ki, şagirdlərə həm Azərbaycan dilinin qanunlarını, prinsiplərini öyrədə bilsin, həm də birbaşa olaraq şagirdlərin tərbiyələnmə prosesinə təsir göstərə, müəyyən mənəvi dəyərləri aşılamaq iqtidarında olsun. H.Balıyevin də qeyd etdiyi kimi, "şagirdlərə ana dilini elə mənimsətmək lazımdır ki, onlar bu dərsdə aldıqları bilik və bacarıqlardan gündəlik fəaliyyətlərində istifadə etsinlər. Əgər ana dilini mənimsəmiş hesab edilən şagird fikrini ərizə vasitəsilə ifadə etməkdə çətinlik çəkirsə, hər hansı məsələ barədə mətbuatda məqalə ilə çıxış edə bilmirsə, fikrini hər hansı məsələnin müzakirəsində ifadə etməkdə çətinlik çəkirsə, deməli, əsas məqsədə nail olunmamışdır" [5, s.39].

"Həm ənənəvi təlimin, həm də kurikulumun məzmunundan çıxış edərək təxminən Azərbaycan dili təliminin aşağıdakı ümumi vəzifələrini qeyd edə bilərik:

1) Şagirdlərdə ünsiyyət mədəniyyətini formalaşdırmaq;
2) Şagirdləri müstəqil həyata, şüurlu peşə seçiminə hazırlamaq;
3) Şagirdlərdə ana dilinə, ədəbi irsə, tarixi keçmişimizə məhəbbət, milli və ümumbəşəri dəyərlərə ehtiram hissi yaratmaq;
4) İnformasiya-kommunikasiya texnologiyalarından, texniki vasitələrdən, ictimai-iqtisadi biliklərdən gündəlik fəaliyyətdə səmərəli istifadə etmək bacarığını təmin etmək" [5, s.39].

Azərbaycan dilinin tədrisi metodikasına dair aparılan tədqiqatların araşdırılmasından ümumtəhsil məktəb şagirdlərinin linqvistik bacarıqlarının formalaşması və inkişafında çalışmalara, tapşırıqlara, məsələn, mətnlər üzərində işlərə adətən onların (şagirdlər) qazandıqları müvafiq nəzəri biliklərinin möhkəmləndirilməsi məqsədi ilə müraciət edilməsi məlum olur.

Məlumdur ki, bədii mətn nümunələrindən effektiv istifadənin əhəmiyyətini həm də onunla izah etəmk olar ki, şagirdlər dərs prosesində belə nümunələrlə tanış olduqca bədii söz ustalarını sanki təqlid etməyə çalışır, öz danışıqlarını eşitdikləri, rastlaşdıqları nümunələrə uyğun nizamalamağa çalışır və lazım gəldikdə yaradıcı yazılarında istifadədən geniş şəkildə yararlanırlar. Deməli, Azərbaycan dili

dərslərində bədii mətn nümunələrindən istifadə edilməsini, bir qayda olaraq, şagirdlərin şifahi və yazılı nitqinin zənginləşdirilməsi baxımından vacibdir.

Müasir dövrdə interaktiv öyrənmə zamanı dillərin tədrisində tapşırıq və çalışmalardan geniş istifadə olunur. Onlar şagirdlərin dili daha effektli öyrənmələrinə kömək edir.

**Mövzu**: Cümlədə uzlaşma əlaqəsinin xarakterinə dair.

**Məqsəd**: Azərbaycan dilində cümlənin üzvləri və söz birləşmələrinin tərəfləri arasındakı uzlaşma əlaqəsini praktik tərzdə şagirdlərə mənimsətmək.

**Dərsin tipi**: Yeni bilik verən.

**Dərsin təlim forması**: Qruplar üzrə iş.

**Dərsin təlim üsulu**; Əqli hücum, ümumi müzakirə (diskussiya).

**Motivasiya**: Dərsdə şagirdlərə müraciət edilir: Uzlaşma əlaqəsinin digər əlaqələrdən (yanaşma və idarədən) fərqi nədən ibarətdir?

**Tədqiqat sualı**: Tədqiqat üçün bir neçə sual müəyyən etmək.

Uzlaşma əlaqəsinə hansı cümlə üzvləri arasında rast gəlinir?

Sinifdə kim cümlə üzvləri arasındakı uzlaşma əlaqəsinə aid nümunə göstərə bilər?

**Tədqiqatın aparılması.** Verilmiş sualları cavablandırmaq üçün müəllim şagirdləri ümumi müzakirəyə cəlb edir. Bu məqsədlə müəllim əvvəlcə hazırlanmış suallarla sinfə müraciət edir.

- İsmi birləşmələrdəki sözlər arasında uzlaşma əlaqəsi vardırmı?

Sinifdə şagirdlərin cavabları dinlənilir:

Təbii ki, bu zaman müxtəlif fikirlər səsləndirilə bilər. Müəllim onlar arasından daha düzgün olanlarını seçir və həmin düzgün cavabları ümumiləşdirərək lövhədə yazır:

- Bəli, ismi birləşmələrdə də uzlaşma əlaqəsinə rast gəlinir. Məsələn: uşaqlar oynayır (lar), quşlar uçudu (lar), mən gəlirəm, sən gəlirsən, o (onlar) gəlir (lər), biz gəlirik, siz gəlirsiniz və s.

Yalnız bu mərhələdən sonra şagirdlərə bildirmək lazımdır ki, uzlaşma

əlaqəsində birləşmədəki sözlər arasında şəxsə və kəmiyyətə görə uzlaşma baş verir. Əsas söz bu tipli birləşmələrdə əsasən isim ola bilir, lakin bu o demək deyil ki, əsas söz digər nitq hissələrdən hansısa biri ola bilməz, təbii ki, digərləri də ola bilər. Dərsin müzakirəsi zamanı şagirdlərin də mülahizələri dinlənilir. Bundan sonra Venn diaqramı vasitəsi ilə müəllim tərəfindən uzlaşma və yanaşma (və ya idarə) əlaqələrinin bir sıra xüsusiyyətləri lövhədə qeyd edilir. Növbəti mərhələdə sinifin şagirdləri dörd qrupa bölünür. Müxtəlif suallar vərəqlərə yazılaraq qruplar üzrə bölüşdürülür və onlara uyğun tapşırıqlar müəyyənləşdirilərək verilir [bax: sxem 2.1.1].

**Sxem 2.1.1.**

İş vərəqi – 1
Sual: Uzlaşma əlaqəsi nədir?

İş vərəqi – 2
Sual:Azərbaycan dilində uzlaşma əlaqəsində olan əsas söz hansı nitq hissəsinə aid olur?

İş vərəqi – 3
Sual: Azərbaycan dilində uzlaşma əlaqəsinin qrammatik göstəriciləri hansılardır?

İş vərəqi –4
Sual: Azərbaycan dilində uzlaşma və yanaşma əlaqələri arasında hansı fərqlər vardır?

**Toplanmış məlumatın mübadiləsi və müzakirəsi**

Qrup üzrə hər bir şagird hazırladığı təqdimatı nümayiş etdirir.

Əvvəlcə I qrupun şagirdlərinin təqdimatı dinlənilir.

Asılı tərəf əsas tərəfin şəxsə və kəmiyyətə görə şəkilçilərini qəbul edir. /Balacalar həyətdə oynayırlar// cümləsində gəldi əsas sözünün tələbi ilə asılı söz – "oynayırlar" şəxsə və kəmiyyətə görə əsas sözlə uzlaşırlar:

balacalar → oynayırlar;

mən → gəlirəm;

sən → gəlirsən və s.

Qrupun digər üzvü davam edir.

/Mən əmimi səhər yola saldım//; /Tələbələr tədbirə tələsirdilər//; /İdmançılar həvəslə yarışırdılar// cümlələrində mübtəda və xəbər arasında uzlaşma əlaqəsi şəxsə və kəmiyyətə görədir: mən → yola saldım, tələbələr tələsirdilər, idmançılar yarışırdılar və s.

II qrupun şagirdlərinin təqdimatı dinlənilir.

Uzlaşma əlaqəsində əsas tərəf daha çox isimlərədn təşkil olunur. Lakin başqa nitq hissələri də əsas tərəf kimi çıxış edə bilir. Məsələn: mən görüşdüm, biz görüşdük, onlar danışdılar və s.

II qrupun digər üzvü əlavə edir:

Bildiyimiz kimi, uzlaşma əlaqəsi Azərbaycan dilində adətən şəxsə və kəmiyyətə görə formalaşır.

Növbəti mərhələdə III qrupun şagirdlərinin təqdimatı dinlənilir.

Azərbaycan dilində uzlaşma əlaqəsinin qrammatik göstəriciləri şəxs və kəmiyyət şəkilçiləridir.

III qrupun başqa bir üzvü əlavə edir:

Azərbaycan dilində şəxsə görə uzlaşma daimi olur və cümlədə uzlaşan tərəflər arasında heç bir halda pozulmur. Məsələn: mən çıxdım, sən çıxdın, o çıxdı, biz çıxdıq, siz çıxdınız, onlar çıxdılar.

Və nəhayət, IV qrupun şagirdlərinin təqdimatı dinlənilir.

Azərbaycan dilində tabeli tərəf tabesiz tərəfin aid olduğu şəxsə məxsus qrammatik əlamətləri qəbul edir, tabe edən tərəfin tək və cəmliyi də tabe tərəfdə əks olunur.

Dərs prosesində hər 4 qrupun təqdimatı dinlənildikdən sonra onların cavabları müəllim tərəfindən qiymətləndirilir.

Müəllim şagirdlərə yeri gəldikdə yönəldici və yardımçı xarakterli suallar verə bilər. Bundan sonra şagirdlərdən alınmış cavablar sistemləşdirilir.

**Nəticə və ümumiləşdirmə**

Dərsin bu mərhələsində şagirdlər aldıqları cavablar ilə tədqiqat sualını tutuş-

durmağa başlayırlar. Müəllim dərsin sonuna doğru şagirdlərin gəldiyi nəticələri ümumləşdirməyə cəhd edir.

Dərs prosesində hər bir qrupun işi ayrıca qiymətləndirilir və və müvafiq nəticələr lövhədə qeyd edilir.

**Yaradıcı tətbiqetmə**

1) Müəllim şagirdlərdən mövzu ilə bağlı hər bir qrupa 5 test tərtib etmək tapşırığı verir;

2) müəllim şagirdlərdən bədii mətnlərdən uzlaşma əlaqəsinin olduğu 10 cümlə seçməyi təklif edir.

Ev tapsırığı: Bədii mətnlərdən uzlaşma əlaqəsinə aid çalışma tərtib etmək.

**Qiymətləndirmə və refleksiya**

Müəllim tərəfindən şagirdlərin dərsdə fəallıqları və hazırlıqları qiymətləndirilir

Dərsdən qazanılmış refleksiyanı öyrənmək üçün müəllim sinifə aşağıdakı suallarla müraciət edir:

1) Bugünkü dərsin hansı mərhələsi Sizin üçün daha maraqlı idi?
2) Dərs prosesində hansı şagirdlər daha çox fəallıq göstərdilər?
3) Siz bu dərsdə Azərbaycan dilində uzlaşma hadisəsi haqqında nələri öyrənə bildiniz?
4) Bugünkü dərsdə nəzəri fikirlərin dil materialına tətbiqini necə qiymətləndirirsiniz?

Yalnız bundan sonra müəllim bütün qrupuların müvəffəqiyyətlərini dəyərləndirir.

Göründüyü kimi, interaktiv (fəal) dərs şagirdin dərs müddəti ərzində biliklərə sərbəst formada yiyələnməsinə və dərsin mahiyyətinin hərtərəfli və düşünülmüş şəkildə qavramasına, sərbəst fikir yürütməsinə, həmçinin şagirdlərin hər birinin özünəməxsus imkanlarının aşkarlanmasına və reallaşmasına münbit zəmin yaratması fikrini söyləməyə imkan verir.

Dərsliklə işləmək - şagirdlər müstəqil şəkildə nəzəriyyəni öyrənir, onu dərk edir və məşqləri yerinə yetirərkən möhkəmləndirirlər. Əlbəttə ki, müəllim eyni za-

manda şagirdlərin fəaliyyətinə rəhbərlik etməlidir, yəni paraqrafın nəzəri hissəsində əsas şeyi vurğulamalı və şagirdlərin diqqətini buna yönəltməlidir. Ancaq heç vaxt bu üsulla məhdudlaşmamalıdır, çünki şagirdlər idrak fəallığını, öyrənməyə olan marağını itirə bilər.

Həvəsləndirmə dedikdə isə müəllim ilə şagirdlər arasında olan dialoji ünsiyyət nəzərdə tutulur və bu da müəllimin yeni mövzuya başlamasına imkan verir. Rollu oyunlardan və dialoqlardan interkativ öyrənmə zamanı istifadə olunur. Bu oyunlar şagirdlərin dili danışıq zamanı istifadə bilmələri üçün şərait yaradır, yeni və köhnə sözlərin istifadəsi üçün imkanlar açır, şagirdlərin yaradıcılıq bacarıqlarını inkişaf etdirir və onların ana və ya xarici dildə fikirlərini sərbəst şəkildə ifadə etmək qorxu-sunu aradan qaldırır.

Texniki və əyani vasitələrdən istifadə - maqnitofon, video, kodoskop, ekran yardımçılarından istifadə. Dil dərslərində istifadə olunan əyani vəsaitlər qrafik, simvolik, vizual, təbii (həcmli) və s. bölünür:

qrafik - cədvəllər, diaqramlar;

simvolik - kartlar;

təsviri - fotoşəkillər və rəsmlər;

təbii – maketlər.

Dil materialı üzərində müşahidə linqvistik hadisələrin müəyyən qaydaya, onların xüsusiyyətlərinə görə ayrılmasından ibarətdir. Dərs prosesində qazanılmış nəzəri bilikləri möhkəmləndirmək və ya yeni mövzuya yaxınlaşmaq üçün geniş istifadə olunur.

Müasir təlim metodları altında fəal və interaktiv təlimin genişləndirilməsi və tətbiqi başa düşülür. Müasir təlim metodu interaktiv təlim dillərin tədrisi prosesini xeyli intensivləşdirir, şagird fəallığının artmasına zəmin yaradır və təlimin inkişaf prosesini gücləndirir. Tədris prosesində interaktiv təlim metodlarından istifadə etdikdə dərsin strukturunda motivasiya, problemin qoyulması, tədqiqatın təşkili, məlumatın mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi mütləq nəzərdə saxlanılmalıdır. İnteraktiv təlimdə tədqiqat fərdi, cütlərlə, qruplarla iş şəklin-

də olmaqla müxtəlif formalarla aparılır. İnteraktv təlim metodunun mühüm xüsusiyyəti dərs prosesinin öyrədici, ümumiləşdirici, yaradıcı olması, müxtəlif problemlərin təşkili, şagirdləri müstəqil düşünməyə yönəltmə, dərketmə, onlarda aldıqları bilik əsasında təhliletmə qabiliyyətlərini sistemli şəkildə formalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir.

İnteraktiv təlim prosesində istifadə edilən tapşırıqlara rol oyunu; intervü; informasiya boşluğu; oyunlar; fikir mübadiləsi; təhlil; cütlüklərlə iş; öyrətməklə öyrənmə və s. misal göstərmək olar.

Bunlardan başqa, müəllim ehtiyac duyduğu zaman müxtəlif qrammatik yoxlama sualları və viktorinalardan da yararlana bilər. İnteraktiv təlim prosesində rabitəli nitqin formalaşmasına xidmət edən istənilən tapşırıqlardan istifadə olunur. Bu tapşıqıların iki növünü xüsusi qeyd etmək olar:

1) funksional kommunikativ mahiyyətli tapşırıqlar: kommunikasiya vasitəsi ilə müəyyən bir nitq bacarığının inkişafı üçün nəzərdə tutulan tapşırıqlar;

2) sosial mübadilə mahiyyətli tapşırıqları: buraya söhbət, diskussiya, dialoq və rol oyunları daxildir.

Müasir dövrdə məktəblərdə tədris prosesinin təkmilləşdirilməsi üçün tətbiq olunan xeyli sayda metodlar vardır və onların əksəriyyəti, xüsusi ilə bir-biri ilə qarşılıqlı əlaqədə tətbiq edildikdə müsbət nəticələr verir. Bu gün tədris prosesində aşağıdakı üsullar geniş istifadə olunur:

- “birbaşa təlimat” (mühazirə vasitəsi ilə tədrisin ən geniş yayılmış forması; lakin bu, ən effektiv tədris metodu deyildir;

- tədqiqat yolu ilə öyrənmə (bu üsul çoxlu zaman, enerji və planlaşdırma tələb edir, lakin əksər hallarda bunu həmin metodun effektivliyi ilə əsaslandırılır; müəyyən nəticəyə gəlmək üçün tənqidi düşünmə bacarıqları inkişaf etdirilir. Bu metod daha çox şəxsiyyətyönümlü metoddur);

- qruplar üzrə təlimi (birgə işləmək məqsədi ilə şagirdlərin qruplara bölünməsi nəzərdə tutur; bir qayda olaraq, bölgü qabiliyyət səviyyəsindən asılı olmayaraq baş

tutur, qrupda müxtəlif intellektual inkişaf səviyyələrinə malik uşaqların olması zəruridir);

- "sərbəst təlimat" (adından da göründüyü kimi, bu, nisbətən formal tədris üsuludur; təcrübəli müəllimlər öz şagirdlərini tanıyırlar. Müəllim müəyyən bir qrup şagirdə bir müddət dərs aparırsa, deməli, onların maraqları və hazırlıqları barədə artıq müəyyən məlumatlara malik olur [25].

## 2.2.Ənənəvi və müasir metodların müqayisəsi

Dil tədrisi ilə bağlı ənənəvi tədris üsulları hələ də bir çox məktəblərdə geniş istifadə olunur. Müəllim təlim prosesini idarə edir və beləliklə, bütün prosesin mərkəzində yer tutur. Bundan əlavə, təlim dərsliyin ciddi göstərişlərinə uyğun şəkildə həyata keçirilir. Ənənəvi təlim üsulunda müəllim bilik mənbəyi, şagirdlər isə bu biliyin passiv qəbulediciləri kimi qarşılıqlı əlaqə prosesini təmsil edir. Ənənəvi pedaqoji elmin metodlarını tətbiq edən müəllim sinifdə mərkəzi yer tutur və müəyyən edilmiş ənənəyə uyğun olaraq hazırlanmış dərsi keçir: əvvəlki materialı nəzərdən keçirir, təkrarlayır, yeni mövzuya giriş, qrammatik qaydaları izah edir, oxuyur, tərcümələr və tapşırıqları yerinə yetirir və şagirdlərin yol verdikləri səhvlər düzəldir. Halbuki müasir dərs şagirdlərdə yaradıcı təfəkkür, hafizə, hiss və təsəvvürün formalaşmasına əsaslanmalıdır. Eyni zamanda, şagird təhsil prosesinin subyekti olmalıdır, yəni müəllim dərs prosesində interaktiv metodla işləməlidir [3].

Dərs prosesində məlumatın göndərilməsi və qəbulu tədrisin iki mühüm komponenti hesab edilir. Bunun nəticəsində müəllim biliyi özünün dərk etdiyi kimi ötürməyə çalışır. Dillərin tədrisində həm şagirdlərin dil biliklərinin, vərdişlərinin, həm də dil bacarıqlarının (oxu, yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi mühüm iş hesab edilir. Hər bir müəllim, ilk növbədə, ana və xarici dillərin leksik qatının tədrisində yeni sözlərin kontekstdə öyrənilməsinə və şagirdlərin oxu vərdişləri və bacarıqlarının inkişaf etdirilməsini diqqət mərkəzində saxlamalıdır.

İnteraktiv metodla keçirilən dərslərdə həm şagirdlər, həm də müəllimlər təlimin subyektləri kimi çıxış edirlər. Bu zaman müəllim yalnız təlim prosesinin daha təcrübəli təşkilatçısı kimi çıxış edir.

Müəllim tərəfindən şüurlu şəkildə problemli situasiyanın yaradılması, şagirdlərin araşdırıcılıq qabiliyyətinin artırılması, məlumatların sərbəst şəkildə araşdırılaraq kəşf edilməsi və mənimsənməsi üçün uyğun mühitin təşkil edilməsini fəal təlimə aid xüsusiyyətlər kimi izah etmək daha düzgün olar. Bununla bağlı Z.Veysova yazır ki, tədris prosesinə "yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qavranılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yaddaşda qalan, ən vacib təlim materiallarının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqəsini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər" [23, s. 11].

Müəllim və şagirdlər öz aralarında məlumat mübadiləsi aparır, problemləri birlikdə həll edir, situasiyaları və vəziyyətləri simulyasiya edir, yoldaşlarının hərəkətlərini və öz davranışlarını qiymətləndirirlər, daha doğrusu, özünüqiymətləndirmə aparırlar. Müasir təlim prosesində əsasən interaktiv, şagirdlərin əldə etdiyi bacarıqları, vərdişləri və bilikləri nümayiş etdirmək üçün münbit şərait yaradan metodlara üstünlük verilir. Çünki interaktiv metodlar bizə insanın şüurunu deyil, həm də onun duyğularını, emosiyalarını, şəxsi keyfiyyətlərini, yəni "bütöv şəxsi" təlim prosesinə cəlb etməyə imkan yaradır. İnteraktiv metodlar materialın şagirdlər tərəfindən mənimsənilmə faizini xeyli artırır. Bundan əlavə, interaktiv metodun tətbiqi təlim prosesini daha da intensivləşdirir, stimullaşdırır, dərsin gedişində hər bir şagirdin fəaliyyətini maksimum dərəcədə yüksəltmək üçün münbit zəmin yaradır, dərsləri maraqlı və cəlbedici edir ki, bu da təlimin inkişafını təmin etmiş olur. Ənənəvi təlim metodlarından fərqli olaraq, interaktiv təlim metodlarının əsas məqsədi və əsas ma-

hiyyəti təlimə cəlb edilmiş hər bir şagirdin səriştələrinin maksimum inkişafına nail olmaqdan ibarətdir.

**Cədvəl 2.2.1.**

**Ənənəvi və müasir dərslərin müqayisəli səciyyəsi**

| Dərsə tələblər | ənənəvi dərs | müasir tipli dərs |
|---|---|---|
| Dərsin mövzusunun elan olunması | Müəllim şagirdlərə məlumat verir | Şagirdlər özləri formalaşdırırlar (müəllim şagirdləri mövzunun başa düşülməsinə yönəldir) |
| Məqsəd və vəzifələrin məlumat verilməsi | Müəllim çagirdlərə nəyi öyrənmələrini formalaşdırır və məlumat verir | Bilik və qeyri-bilik arasında sərhədi təyin edən şagirdlər özləri formalaşdırırlar |
| Planlaşdırma | Müəllim şagirdlərə məqsədə çatmaq üçün hansı işləri yerinə yetirməli olduqlarını məlumat verir | Qarşıya qoyulmuş məqsədə çatmaq üçün şagirdlər məqsədəçatmaq üsullarını planlaşdırırlar (müəllim kömək və tövsiyə edir) |
| Şagirdlərin praktik fəaliyyəti | Bir sıra praktik məsələlər müəllimin rəhbərliyi altında yerinə yetirilir (əksər hallarda fəaliyyətin təşkilinin frontal metodu tətbiq olunur) | Şagirdlər nəzərdə tutulmuş plan üzrə tədris işlərini yerinə yetirirlər (qrup və fərdi metodlar tətbiq olunur) müəllim məsləhət verir |
| Nəzarətin həyata keçirilməsi | Müəllim şagirdlərin praktik işlərin yerinə yetirilməsinə nəzarəti yerinə yetirir | Şagirdlər nəzarəti həyata keçirirlər (özünüyoxlama, qarşılıqlı nəzarət) müəllim məsləhət verir |
| Düzəlişin həyata keçirilməsi | Müəllim işin gedişı yoxlayır və yerinə yetirilmənin nəticələrini islah edir | Çətinlikləri şagirdlər formalaşdırır və korreksiyanı müstəqil şəkildə icra edirlər, müəllim |

| | | |
|---|---|---|
| | | məsləhət verir, kömək edir |
| Şagirdlərin qiymətləndirilməsi | Müəllim şagirdlərin qiymətləndirilməsini həyata keçirir | Şagirdlər fəaliyyətlərinə onun nəticələrinə görə qiymət verirlər (özünüqiymətləndirmə, yoldaşlarının fəaliyyətinin qiymətləndirilməsi) |
| Dərsin yekunu | Müəllim şagirdlərin nəyi yadda saxladıqlarını yoxlayır | Refleksiya keçirilir |
| Ev tapşırığı | Müəllim elan və şərh edir (əksər hallarda hamı üçün eyni tapşırıq) | Fərdi xüsusiyyətlər nəzərə alınmaqla şagirdlər müəllimin təklif etdiyi çalışmalardan birini seçə bilərlər |

Azərbaycan dilinin tədrisində müasir metod və üsullardan istifadə şagirdlərin onu daha yaxşı öyrənmələrinə münbit şərait yaradır. Tədris prosesində müasir metodların istifadəsi şagirdləri Azərbaycan dilini öyrənməyə həvəsləndirir və onlarda özünə inam hissini artırır. Müəllimlər də, öz növbəsində, şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək məqsədi ilə onlar müxtəlif fəaliyyətlərə cəlb etməlidirlər. Bundan başqa, müəllimlər tədris prosesində şagirdlərin özlərini rahat hiss edə biləcəkləri öyrədici və yaradıcı mühit yaratmalıdırlar.

İzahlı-illüstrativ metodun mahiyyəti ondan ibarətdir ki, müəllim hazır məlumatı müxtəlif vasitələrlə şagirdlərə çatdırır, şagirdlər isə bu məlumatı qavrayır, dərk edir və və yaddaşda qeydə alırlar. Məlumatın ötürülməsini müəllim şifahi söz, yazılı sözü, əyani vəsaitlər, fəaliyyət üsullarının praktiki nümayişi ilə yerinə yetirir. Beləliklə, hər iki ənənəvi üsulda biliyin şagirdlərə hazır formada ötürülməsi nəzərdə tutulur.

İnteraktiv metodların tədrisə tətbiqi sayəsində digər şagirdlərlə əməkdaşlıqda biliklərin effektiv mənimsənməsi baş verir. Bu üsullar kollektiv öyrənmə formalarına

aiddir, bu zaman bir qrup şagird öyrənilən material üzərində işləyir, eyni zamanda onların hər biri görülən işə cavabdehlik daşıyır.

Bildiyimiz kimi innovativ təlim metodlarının bir sıra müsbət cəhətləri vardır:

- şagird fəaldır;
- şagirdin tələblərinə yönəlib;
- tələbyönümlüdür;
- demokratik üsluba yönəlib;
- yeni biliklər tədqiqat zamanı şagirdlər tərəfindən müstəqil şəkildə əldə edilir;
- produktiv (yaradıcı) təlimə əsaslanır;
- müəllim və şagirdlər arasında əks əlaqə mövcuddur;
- evristik təlim metodudundan istifadə edilir;
- müxtəlif yeni təlim texnologiyalarından istifadə olunur;
- "öyrənməyi öyrətmək" əsas məqsədə çevrilir;
- yeni bilik tədqiqat zamanı şagirdlər tərəfindən müstəqil şəkildə əldə edilir. [15, s.8]

İnnovativ tədris metodlarının məktəbdə dərs prosesində tətbiqi şagirdlərdə müstəqil düşünmə (təfəkkür) qabiliyyətinin inkişafına xidmət edir, onlarda öyrənilən materialı sistemləşdirmək və ümumiləşdirmək, müzakirə və diskussiya aparmaq vərdişini formalaşdırır.

Fikrimizcə, ənənəvi təlim üsullarının bir sıra müsbət cəhətləri vardır.

1) dərs zamanı müəllim hər bir şagirdə ayrı-ayrılıqda vaxt ayıra bilir;
2) yeni biliklərin mənimsənilməsi müəllimin izahı ilə yadda saxlanılır;
3) dərs təkraredici, yəni reproduktiv təlimə əsaslanır.

Ənənəvi təlim üsullarının müsbət xüsusiyyətləri ilə yanaşı mənfi xüsusiyyətləri də vardır:

1) dərs prosesində şagirdin yaddaşı həddindən artıq yüklənir;
2) şagirdlər diqqətini toplaya bilmir və bunun nəticəsində şagirddə diqqət dağınıqlığı yaranır;
3) dərs zamanı şagirdin müstəqillik səviyyəsi aşağı olur;

4) şagird materialı tam mənimsəyə bilmir;
5) şagird müstəqil şəkildə düşünüb qərar qəbul edə bilmir;
6) şagirdin biliyi orta səviyyədə olur;

Şübhəsiz ki, innovativ təlim metodları ənənəvi metodlarla müqayisədə xeyli sayda üstünlüklərə malikdir, çünki onlar şagirdlərin inkişafına xidmət edir, onların təfəkkür fəaliyyətini inkişaf etdirir və onlarda müstəqil şəkildə qərar qəbul etmək vərdişlərini formalaşdırır.

Ənənəvi və innovativ təlim metodlarının tətbiqi nəticəsində şagirdlərdə aşağıdakı fərqli keyfiyyətlər formalaşır.

**Cədvəl 2.2.2.**

**Ənənəvi və innovativ metodların tətbiqinin nəticələrinin müqayisəsi**

| | **ənənəvi** | **İnnovativ** |
|---|---|---|
| məqsəd | bilik, bacarıq və vərdişlərin formalaşması | yeni qeyri-standart problemlərin müstəqil şəkildə qoyuluşu və həllinin tapılması bacarıqlarının inkişaf etdirilməsi |
| təşkilatı forma-ları | frontal, fərdi | qruplar üzrə, kollektiv |
| təlim metodları | illüstrativ-izahedici | problemli, problemli ifadə, qis-mən axtarış, tədqiqat |
| aparıcı fəaliy-yət tipləri | reproduktivlik, təkrarçılıq | məhsuldar, yaradıcı, problemli |
| mənimsəmə üsullari | əzbərləmə, alqoritmlər üzrə hərəkət | axtarış fəaliyyəti, refleksiya |
| müəllimin funksiyaları | informasiya daşıyıcısı, norma və adətlərin qoruyucusu | əməkdaşlıın təşkilatçısı, məslə-hətçi |

| | | |
|---|---|---|
| şagirdin mövqeyi | passivlik, şəxsi inkişafa marağın, motivin olmaması | aktivlik, özünütəkmilləşdirməyə motivin olması, fəaliyyətə marağın olması |

Ənənəvi təlim metodunun əsas məqsədi şagirdlərin mövzunu başa düşüb-düşməməsindən asılı olmayaraq keçilən materialı yadda saxlamaqdır. Ənənəvi dərslərdə testləşdirmə mühüm yer tutur. Şagirdlərin biliyini qiymətləndirmək üçün onlar testdən keçirilir və bu zaman onların bilik, qabiliyyət və maraqlarının ilkin şərtlərini nəzərə alınmır. Beləliklə, sinifdə müəllim-şagird arasında qarşılıqlı münasibətlər yetərli olmur, şagirdlərin dil və ünsiyyət təcrübəsi ilə bağlı bilik və bacarıqlarını praktik inkişaf etdirmək imkanları heçə enir.

Ənənəvi metodologiyadan fərqli olaraq, müasir metodologiya daha çox şagird şəxsiyyətyönümlüdür. Müasir metodologiyada müəllimin əsas rolu tədris prosesinin davam etdirilməsinə kömək etməkdir, yəni şagirdləri baş verənlərə cəlb etmək, onlara uzun izahatlar vermədən, öz templəri ilə işləməyə imkan vermək, onları ünsiyyət prosesində iştirak etməyə həvəsləndirmək.

Müasir sinif otaqları müxtəlif əyani vəsaitlərlə (maqnit lövhələri, tədris resursları, öyrədici oyuncaqlar, kompüterlər, müxtəlif sənətkarlıq məhsulları, riyazi avadanlıqlar, çap və elektron kitablar və s.) təchiz edilmişdir. Bütün bunları təlim prosesinə daxil edə bilən müəllimə böyük ehtiyac var.

Müasir tədris prosesində müəllim yalnız izah etmək üçün deyil, şagirdlərə dəstək olmaq və araşdırmalara kömək etmək, düşünənləri həyata keçirməyə kömək üçün lazımdır. Dil dərslərində müasir metodologiyanın üç prinsipini formalaşdırmaq mümkündür: 1) danışıq fəaliyyətinin üstünlük təşkil etməsi; 2) öyrənmə prosesində əlaqəli mətnin mərkəzə gətirilməsi; 3) sinifdə danışıq metodologiyasının mütləq prioritetliyi. Bundan başqa, müasir metodologiyada qrammatik qaydaları və sözlərin ayrıca siyahısını əzbərləmək əvəzinə, kontekst dilini təmsil etməyə və bacarıqları inkişaf etdirməyə üstünlük verilir.

Müasir dərsin səmərəliliyi şagirdlərin müstəqil düşünməyə yönəldilməsindədir.

Şagirdlərdə müstəqil öyrənmə fəallığının artmasına müəllim münbit şərait yaratmalıdır. Dərs prosesində şagirdlər problemin həll edilməsinə köklənməlidirlər. Müəllim kömək məqsədi ilə şagirdləri istiqamətləndirməli, düşünülmüş suallarla çıxış etməli, onlara problemin həllində lazımi təlimatlar verməlidir. Müasir dərs prosesində qoyulmuş problemin həllində müəllim və şagird tərəfdaş kimi çıxış edirlər. Müasir dərs prosesində müəllim – şagird əlaqələrini aşağıdakı sxemdəki kimi təsvir etmək mümkündür [bax: sxem 2.2.4]:

**Sxem 2.2.3.**

**Ənənəvi dərsdə müəllim şagir münasibətləri**




**Sxem 2.2.4.**

**Fəal dərsdə müəllim – şagird münasibətləri**




Sxem 2.2.3-də biristiqamətli ox ənənəvi dərsin gedişində müəllimin dominantlıq təşkil etməsini, sxem2.2.4-də isə ikiistiqamətli ox fəal təlimdə müəllim və şagirdin bərabərhüquqlu subyekt, yəni subyekt-subyekt münasibətində olduğunu əks etdirir.

Müasir dərs prosesində şagirdlərin fəallığı başlıca prinsipdir. Müasir dərsdə şagirdlərə əldə etdikləri biliklərin təcrübədə tətbiqi, öz mülahizələrini irəli sürüb məntiqli formada əsaslandırması, sərbəst düşünmə qabiliyyətinin formalaşı təmin edilir. R.T.Qəndilov və b-nın qeyd etdikləri, “interaktiv təlimdə mexaniki yaddaşın deyil, təfəkkürün inkişafı, şagirdlərin fəal dərketmə mövqeyi, biliklərin müstəqil əldə edilməsi, tədqiqat və dərketmə üçün uyğun şəraitin yaradılması, biliklərin yaradıcı

tətbiqi, əməkdaşlıq etmək bacarığı, təfəkkürün müstəqilliyi və s. amillər nəzərdə tutulur" [16, s. 9]. Real idrak motivasiyasının yaradılması fəal təlimin əsas üstünlüyüdür. Fəal təlim prosesində şagirdlər bilikləri "hazır" formada yox, müstəqil şəkildə düşünülmüş formada mənimsəyirlər, yəni biliklərin mənimsəməsi prosesi passiv deyil, fəal yaradıcı xarakter kəsb edir.

Təlim məqsədlərinin həyata keçirilməsində aparıcı rol öyrənmə motivasiyasına aiddir, bunun mahiyyəti şagirdlərin bu mövzunu nə üçün öyrəndiklərini, bu biliklərin onların hər biri üçün lazım olduğunu aydın başa düşməsidir. Öyrənmə motivasiyasının həyata keçirilməsinin uğuru, şübhəsiz ki, müəllimin əlindədir, yəni öz səriştəsi, yaradıcı pedaqoji məharət səviyyəsindədir. İkinci göstərici isə sinifdə müəllimin rolunu və funksiyasını dəyişdirməsindədir. Ənənəvi dərsdə müəllim informasiya ötürəndirsə, müasir dərsdə o, tədris fəaliyyətinin təşkilatçısı, köməkçisi, məsləhətçisidir.

Müəllimlə şagirdlər arasında münasibətlər də dəyişir: ənənəvi dərsdə avtoritar ünsiyyət tərzi üstünlük təşkil edirsə, müasir dərsdə dərsin keçirilməsinin müxtəlif formalarının seçilməsində, dərsin keçirilməsində, nəticələrin qiymətləndirilməsində ifadə olunan əməkdaşlıq mövcuddur, hətta müəllimin bəzi funksiyalarının şagirdə ötürməsi də mümkündür.

Müasir dərsdə təlim prosesinin qurulmasının məntiqi vaxtın fərqli paylanmasında, yəni dərsin əsas tədris hissəsi onun ən məhsuldar hissəsinə - dərsin başlanğıcına düşür. Tədris problemlərinin həlli, mənimsəmənin yoxlanılması, biliyin yadda saxlanması, dərindən başa düşülməsi prosesində bilik və bacarıqların tətbiqini öyrətmək məqsədi ilə dərsin ayrı-ayrı mərhələlərini birləşdirmək mümkündür.

Tərtib olunmuş cədvələ əsasən demək olar ki, müqayisə olunan ənənəvi və müasir dərslər arasında əsas fərq aşağıdakılardan ibarətdir:

- müəllim və şagirdlərin fəaliyyəti fərqlənir;

- ənənəvi dərslərdəki tapşırıqların passiv icraçısı şagird artıq başlıca içraçıya çevrilir.

Müasir dərsin əsas qanunları bunlardan ibarətdir:

1) təlim, tərbiyə və inkişafın vəhdəti;

2) dərsin ümumi funksiyası – şəxsiyyətin bütövlükdə formalaşması;

3) dərsin üçlü məqsədi – təlim, tərbiyə, inkişaf.

Bu qanunlardan çıxış edərək müasir dərsin nəticəliviyinin meyarlarını müəy-yənləşdirmək olar:

Sxem 2.2.5.




Belə ki, ənənəvi təhsildə əsas olanlar izahlı-nəzarətli təlim texnologiyalarıdır. İzahlı-nəzarət dərsinin strukturu, onun təhlilinə dair tələblər ənənəvi tədrisdə bütün texnoloji prosesin qurulduğu prinsiplərlə müəyyən edilir. İzahlı-nəzarət dərsinin aşağıdakı güclü tərəfləri fərqlənir:

- pedaqoji prosesin təşkilati aydınlığı;
- öyrənmənin sistemli xarakteri, müəllim şəxsiyyətinin şagirdlərə emosional təsiri;
- geniş və çoxşaxəli məlumat, audiovizual tədris vəsaitlərindən istifadə.

Ənənəvi izahlı-nəzarət dərsinin zəif tərəflərinə aşağıdakılar daxildir:

- frontal iş formalarının üstünlük təşkil etməsi, müəllim fəal, şagirdlər isə passivdir;
- dərsdə vaxtın irrasional bölgüsü, əksəriyyəti materialın izahına və ya sorğulanmasına verilir və burada yalnız bir müəllim fəaliyyət göstərir;
- şagirdlərin müstəqil təhsil və idrak fəaliyyəti ilə az dəstəklənən şifahi, mono-loji tədris metodlarının üstünlük təşkil etməsi, dərsin şablon qurulması, həddindən artıq miqdarda ev tapşırığı;
- öyrənənlər və öyrədənlər arasında münasibətlərin subyekt-obyekt xarakteri;
- şagird tədris təsirlərinin tabeli obyektidir, o, həmişə “borcludur”;
- nəzarətin obyektiv formalarının olmaması.

Qiymətləndirmə bəzən müəllimin subyektiv fikrini əks etdirir ki, bu da həmişə ədalətli olmur, ona görə də eyni işi müəllimlər müxtəlif cür qiymətləndirə bilər. Pozuntulara qarşı mübarizə üçün mənfi qiymətləndirmələrdən istifadə olunur, ədalətsiz qiymətləndirmələr isə psixoloji cəhətdən mənfi təsirsiz ötüşmür. İzahlı-nəzarət dərsinin təşkili işin reproduktiv səviyyəsində saxlanılır. Müəllimə olan şagirdlər yalnız müəyyən miqdarda biliklərin şagirdlərə ötürülməsinə və mənimsənilməsinə nəzarətə qədər azaldılır. Təbii ki, müxtəlif müəllimlər bu işi müxtəlif üsullarla və müxtəlif dərəcədə müvəffəqiyyətlə yerinə yetirirlər. Eyni zamanda, onların fənnindən verilən tapşırıqların həcminin bütün fənlər üzrə gündəlik, rüblük, semestr, illik tapşırıqların ümumi həcminin bir hissəsi kimi böyük olub-olmaması, bundan sonra şagirdlərin aqibətinin necə olacağı, təlim nəticələri gələcəkdə hansı dərəcədə istifadə olunacağı ilə az maraqlanırlar.

Ənənəvi və müasir metodların üstünlükləri və çatışmazlıqları vardır. Öncə ənənəvi dərsin üstünlüklərini qeyd etmək istərdik:

1. Dəyişən zaman ənənəvi dərsdə yaxşı olanları dəyişməyə bilməzdi. Əsrlərlə toplananlar ədəbi olaraq dəyər kimi qalmaqdadır. Ənənəvi dərsin tərbiyələndirdiyi möhkəm, sistemli, dərin biliklərsiz və beyinlərdəki nizam-intizamsız keçinmək mümkün deyildir.

2. Ənənəvi dərsdə işləmək asandır: onun təşkili sadə, ənənəvi, təfərrüatlarına qədər yaxşıca məlum və işlənib hazırlanmışdır.

Ənənəvi dərsin əsas çatışmazlıqları:

1. Müəllimin həddən artıq yorulması, xüsusən axırıncı dərslərdə, çünki dərsin bütün ağırlığı müəllimin üzərinə düşür.

2. Eyni bir şeyin dəfələrlə, keçilmişin sonsuz təkrarı.

3. Oxumaq həvəsinin olmaması, müəllim tərəfindən irəli sürülən tələblərin öyrənənlər tərəfindən başa düşülməmənin artması səbəbindən narazılıq hissinin formalaşması.

Hal-hazırda müasir dərslər bir çox müsbət xüsusiyyətləri ilə ənənəvi dərslərdən fərqlənir. Bu fərqlərə aşağıdakıları aid edə bilərik:

- ənənəvi təlimdə dərs prosesində müəllim daha fəal mövqe tuturdusa, müasir təlimdə bunun əksinə olaraq şagird daha fəaldır;
- müasir təlimin prinsipləri ilə qurulan dərsdə kurikulumun prinsiplərinə əsaslanan nəticəyönümlülük özünü göstərir. Yəni dərs prosesinin əvvəlində dərsin sonunda əldə olunmalı olan nəticələn müəyyənləşir;
- müasir dərs ənənəvi dərsdən fərqli olaraq şagirdlərin tələbatlarını nəzərə alır;
- müasir dərs prosesində müəllim ənənəvi dərsdən fəqli olaraq daim tədqiqat aparır, araşdırır, yaradıcıdır və özünü inkişaf etdirir;
- müasir təlimdə dərs zamanı şagirdlər cütlərlə və qruplarla iş görür, bu da hər bir şagirdin ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Müasir metodların ənənəvi metodların lehinə olan müəyyən mənfi cəhətləri də vardır. Müasir tədris vasitlərindən istifadə müəllim və şagird arasında qarşılıqlı əlaqənin zəifləməsinə səbəb ola bilər. Bundan əlavə, avadanlıqların yüksək qiyməti və texniki xidmət ehtiyacı, həmçinin texnologiyadan düzgün istifadə üzrə müəllim-lərin hazırlanmasına ehtiyac vardır. Ənənəvi tədris metodları uzun müddətdir ki istifadə olunur. Müasir şəraitdə ənənəvi təhsil modelinin tamamilə yanlış və ya qəbuledilməz olduğunu söyləmək düzgün olmaz. Ənənəvi tədris metodları bu gün də istifadə edilə bilər, lakin, əlbəttə ki, müasir metodlarla birlikdə.

Müasir tədris metodlarını tətbiq edən müəllimin ixtiyarında çoxlu müxtəlif köməkçi cihaz və materiallardan istifadə etmək imkanı vardır. Şagirdlər fləş kartlar, interaktiv lövhələr, CD-lər və s. kimi müxtəlif vizual materiallardan istifadə olunan dərslərdən zövq alırlar. Bütün bunları həyata keçirmək üçün hər bir müəllim İKT-dən düzgün şəkildə istifadə edə bilməlidir. Təəssüf ki, hal-hazıda bugünki gündə tədris prosesində bir çox müəllim kompüter, planşet, noutbook, proyektor kimi texniki avadanlıqlardan istifadə edə bilmir. Lakin qeyd etdiyimiz kimi, bütün müəllimlər İKT-nin avadanlıqlarından istifadəni bacarmalıdır, çünki dərs prosesinin motivasiya mərhələsində mövzuya uyğun düzgün resursları seçmək şagirdlərin dərsə olan marağını artırmaqla yanaşı, mövzunu daha yaxşı qavramalarına kömək edir. Nəticə olaraq da, bütün bunlar dərsin səmərəliliyini artırır.

Beləliklə, şagirdlər daha diqqətli olur və tədris materialını daha yaxşı yadda saxlayır, müəllimin mövzunu ənənəvi şəkildə izah etdiyindən daha tez uzunmüddətli yaddaşa keçirlər. Bu vasitələr şagirdlərin eksplisit-deklarativ yaddaşındakı faktları da dəstəkləyir.

H.Balıyev və A.Balıyevin "Azərbaycan dilinin tədrisi metodikası" dərsliyində İKT-lə bağlı doğru olaraq qeyd edilir ki, "Bu gün tədris prosesində interaktiv qurğu və lövhələrlə bərabər, interaktiv sənəd kameralarından, planşetlərdən, qiymətləndirmə sistemlərindən də istifadə olunur. Məsələn, MİMİO Teach tipli universal təlim texnologiyaları müəllimin faaliyyətini asanlaşdırır, ona az vaxt ərzində daha çox və effektiv iş görməyə mkan yaradır. Dərsin tipindən asılı olmayaraq, istənilən məqamda, konkret vəziyyəti nəzərə alaraq, MİMİO qurğusundan istifadə etmək mümkündür. Belə dərslər çox dinamik olur, şagirdlər səylə çalışır, məqsədə çatmaq üçün bilik və bacarıqlarını, yaradıcılıq qabiliyyətlərini fəallıqla nümayiş etdirirlər. İnteraktiv MİMİO qurğusu adi lövhəni «ağıllı lövhə» edir. O, nəinki dərsin rasional təşkilidir, həm da pedaqoji va psixoloji məsələlərin həllidir. MİMİO öyrənmək, anlamaq və yaratmaq imkanı verən vasitədir" [5,s.156].

Məlumdur ki, dərsin elmi və praktiki səviyyəsini artırmaq üçün elmi-texniki tərəqqinin son nailiyyətlərindən istifadə olunmalıdır. Müasir dərs həm də pedaqogika və psixologiya sahəsində qazanılmış son nailiyyətlərə əsaslanmalıdır. Müasir dərs şəxsiyyət əmsalı şüuruna (yəni düşüncə, hafizə, hiss və təsəvvür formalaşmalıdır) əsaslanmalıdır. Bundan başqa, şagird təhsil prosesinin subyekti olmalıdır, yəni müəllim dərsin gedişində interaktiv metodla işləməlidir.

Deməli, müasir təhsil sahəsi, ilk növbədə, "bəşəriyyətin inkişaf etdirdiyi bütün biliklərin mənimsənilməsinə" yönəldilmiş öyrənmədən, öz müqəddəratını təyin edə bilən bir insanın formalaşdığı öyrənməyə keçid dövrünü yaşayır.

# NƏTİCƏ

Tədqiqat işində nəzəri-metodoloji mənbələrin və praktik dil materiallarının tədqiqi nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir:

1. Azərbaycan dili dərsləri bütün tədris olunan dərslərin zəncirində əsas həlqəni təşkil edir. Hər hansı tədris proqramının Azərbaycan dili dərsi olmadan keçirilməsi mümkün deyildir. Azərbaycan dili qloballaşan dünyada hər bir fərdin həyatında xüsusi əhəmiyyətə malikdir.

2. Azərbaycan dilinin öyrənilməsində şagirdlərdə kommunikativ səriştəyə yiyələnmək əsas məqsəddir. Qoyulan məqsədə nail olmaq üçün dil dərslərində Azərbaycan dilinin tədrisi fəal təlim üsulları vasitəsilə kommunikativ-yönümlü, funksional-yönümlü şəkildə təşkil edilməli və kommunikativ yanaşmanın əsasında dayanan kommunikativlik, interaktivlik prinsipləri əsasında yerinə yetirilməlidir.

3. Azərbaycan dilinin tədrisi prosesinin səmərəli olması müəllim tərəfindən dərsin düzgün qurulması və dərsin formasının məntiqi əsaslarla seçmək bacarığından irəli gəlir. Mövzu ilə bağlı olaraq metodoloji ədəbiyyatın araşdırılması göstərir ki, reseptiv danışıq fəaliyyəti qavrayışı və informasıyanın sonrakı işlənib hazırlanmasını yerinə yetirir və oxu və eşidib-anlama prosesini əhatə edir. Azərbaycan dilindəki şifahi və yazılı mətnin dərk olunması, qavranılması və aktiv şəkildə işlənib hazırlanması məqsədyönümlü oxu və vahid kommunikativ vərdişlərin formalaşması sayəsində mümkündür.

4. Bu gün auditoriyada Azərbaycan dilinin tədrisində irəli sürülən mühüm vəzifələrdən biri təlim prosesində interaktivliyin təmin edilməsidir. İnteraktivlik isə yalnız şagird-müəllim, şagird-şagird arasında münasibətlər deyil, həm də dil aspektləri və danışıq vərdişlərinin şagirdlər tərəfindən əlaqəli şəkildə mənimsənməsi deməkdir. Azərbaycan dilinin işlək normativ cümlə modelləri, danışıq dilinin xüsusiyyətləri şagirdlər tərəfindən mənimsənilməsinə, ədəbi danışıq dili normalarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

5. Ənənəvi təlim üsulunda müəllim bilik mənbəyi, şagirdlərin isə bu biliyin passiv qəbuledicilərini təmsil edirlər. Müasir dərs şəxsiyyət əmsalı şüuruna, yəni düşüncə, hafizə, hiss və təsəvvürün formalaşmasına əsaslanır. Müasir dövrdə fəal təlim metodları ilə tədris olunan dərslərdə şagird və müəllim təlimin subyektləri kimi çıxış edirlər.

6.Müəllim və şagirdlər arasında qarşılıqlı məlumat mübadiləsinə əsaslanan müasir təlim prosesi əsasən interaktiv xarakterlidir və şagirdlərə əldə etdiyi bacarıq-ları, vərdişləri və biliklərini nümayiş etdirmələrinə münbit zəmin yaradır. İnteraktiv metod təlim prosesini intensivləşdirir, stimullaşdırır, dərsin gedişində hər bir şagirdin fəaliyyətini maksimum dərəcədə yüksəldir.

7. Ənənəvi təlim üsulları ilə keçirilən dərslərdə şagirdlərin yaddaşı yüklənir, onların müstəqillik səviyyəsinin aşağı olur, diqqətləri dağınıq olur, materialı tam mənimsəyə bilmir, şagirdlər müstəqil düşünə və qərar qəbul etməkdə çətinlik çəkir və s. Fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə isə çalışmalar yaradıcı xarakter daşıyır və qruplarla yerinə yetirilir. Müasir dərsdə öyrədici, rollu, işgüzar oyunlar təşkil olunur, dərs-ekskursiyalar təşkil olunur, dərslərdə videomateriallardan istifadə olunur və s.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI


***Azərbaycan dilində***

1. Abdullayev N.Ə. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı: APİ-nin nəşri, 1985, 265 s.

2. Ağayev Ə.Ə.Təlim prosesi: ənənə və müasirlik. -Bakı : Adiloğlu, 2007, 314 s.

3. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı, 2013, 86 s.

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. -Bakı: Təhsil, 2013, №10, s.4-16

5. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. -Bakı: Qismət 2014 s.380

6. Bayramov, Ə.S., Əlizadə Ə.Ə.  Psixologiya. Ali məktəblər üçün dərslik. -Bakı: ÇİNAR-ÇAP, 2002. - 620 s.

7. Əfəndizadə Ə. Azərbaycan dili təliminin məzmun problemləri // Azərbaycan dili və ədəbiyyat tədrisi, 1987, № 1, s. 12-19.

8. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. -Bakı: Mütərcim, 2007, 120 s.

9. Əhmədov Ə.M. Azərbaycan dili tədrisinin bəzi məsələləri. -Bakı: Təhsil, 2007, 239 s.

10. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər (psixopedaqoji araşdırmalar). -Bakı: Adiloğlu, 2001, 162 s.

11. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. -Bakı: MBM, 2014, 77 s.

12. Hacıyev A. Azərbaycan dilindən sistematik kursun sintaksis əsasda tədrisinə dair // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2000, № 4

13. Hacıyev A. Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məzmunca işlənilməsi // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2014, № 1

14. Həsənov İ, Rüstəmova A, Babayeva N. Kurikulum.Metodika.Pedaqogika. Bakı: Mücrü, 2020, 228 s.

15. Hüseynova G. Kurikulum. Bakı Peşəkarlar Akademiyası, 2018, 249 s.

16. Qəndilov R.T., Tağıyeva S.Ş., Qocayev Ş.Ə. və b. Həyati Bacarıqlara Əsaslanan Təhsil. Bakı: Çaşıoğlu, 2007, 150 s.

17. Qurbanov V.T. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Müəllim, 2014, 72 s.

18. Mehrabov A. O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 s.

19. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007, 464 s.

20. Paşayev A. Azərbaycan dili və ədəbiyyatı tədrisinin bəzi problemləri (Metodik vəsait). Bakı, Hədəf Nəşrləri, 2012. - 180 s.

21. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1953, 311 s.

22. Veysəlli F.Y. Dilöyrənmənin praqmatik aspekti / Orta və ali məktəblərdə xarici dillərin tədrisinin aktual problemləri Respublika elmi konfransının materialları. Bakı: ADU Nəşriyyatt, 2008, s. 214-218.

23. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. – Bakı, 2007, -156 s.

***İnternet resursu***

24. https://spravochnick.ru/pedagogika/teoriya_obucheniya/tradicionnye_metody_obucheniya/#slovesnye-metody-obucheniya

25. http://www.wisegeek.org/what-are-some-different-teaching-methods.htm

26. https://www.muallim.edu.az/www.old/arxiv/2014/08/25.htm

27. https://antifenu.wordpress.com/2012/09/07/398/

28. http://anl.az/down/meqale/az_muellimi/2010/aprel/117596.htm

29. https://kayzen.az/blog/pedaqoq/1539/t%C9%99lim-metodlar
30. Experimental method. http:// www.holah.karoo.net
31. Experimential education. https://www.carleton.ca